**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ**

**SUMQAYIT DÖVLƏT TEXNİKİ KOLLECİ**

# “ Fəlsəfə,politoloqiya və sosioloqiyanın əsasları “

***fənnindən mühazirələr***

**Orta İxtisas Təhsil müəssisələrində**

**fənnin tədrisi üçün nəzərdə tutulub**

***SUMQAYIT-2020***

## Mövzuların adları

1. **Fəlsəfənin predmeti, cəmiyyətin mənəvi inkişafında rolu.**
2. **Qədim Şərq fəlsəfəsi.**
3. **Antik fəlsəfə.**
4. **Orta əsr Qərbi Avropa fəlsəfəsi.**
5. **Orta əsrlərdə Şərqdə və Azərbaycanda fəlsəfi fikir.**
6. **İntibah və Yeni dövr fəlsəfəsi.**
7. **Klassik Alman fəlsəfəsi.**
8. **Azərbaycan maarifçilik fəlsəfəsi .**
9. **Fəlsəfədə varlıq və materiya anlayışı.**
10. **Dialektika inkişaf haqqında təlimdir.**
11. **Fəlfsəfədə şüur problemi.**
12. **İctimai şüurun strukturu və formaları.**
13. **Fəlsəfədə insan problemi.**
14. **Həyatın mənası:ölüm və ölməzlik.**
15. **Mədəniyyət və sivilizasiya anlayışı.**
16. **Politologiyanın predmeti. Siyasət və siyasi münasibətlər.**
17. **Azərbaycan xalqının siyasi fikir tarixi. Siyasi hakimiyyət anlayışı.**
18. **Siyasi sistem anlayışı. Azərbaycan Respublikasının siyasi sistemi.**
19. **Dövlət və cəmiyyət. Vətəndaş cəmiyyəti və hüquqi dövlət.**
20. **Siyasi rejimlər. Totalitar və avtoritar rejimlər.**
21. **Siyasi partiyalar. Partiya sistemi. Azərbaycan Respublikasında siyasi partiyaların yaranmasının xarakterik xüsusiyyətləri.**
22. **Demokratiya anlayışı, onun formaları. Demokratiyanın müasir prinsipləri.**
23. **Parlament, onun formaları, strukturu, səlahiyyəti və funksiyaları. Seçki sistemi.**
24. **Beynəlxalq münasibətlər sistemi və dövlətin xarici siyasəti**
25. **Sosiologiyanın predmeti. Nəzəri və tətbiqi sosiologiya.**

**26.Şəxsiyyətin sosiallaşması və onun sosial davranışı.Statuslar.**

**27.Sosial struktur anlayışı. Sosial mobillik.**

**28.Ailə  və nigahın sosiologiyası.**

**29.Din, dinə sosioloji yanaşma.**

**30.Müasir dövrün qlobal problemləri və sosial proqnozlaşdırma.**

**FƏLSƏFƏ, ONUN PREDMETİ VƏ CƏMİYYƏTİN MƏNƏVİ İNKİŞAFINDA ROLU.**

Fəlsəfə ən qədim elmlərdən biridir. İctimai şüurun xüsusi bir forması kimi o hələ eramızdan çox-çox əvvəl, qədim quldarlıq cəmiyyətində meydana gəlmişdir. “Fəlsəfə” yunan sözüdür və hərfi mə'nası “Biliyə müdrikliyə sevgi” deməkdir. Yunanca “Fileo” sevirəm, “ sofia” isə müdriklik deməkdir. Sonralar yunanlıların işlətdiyi bu söz demək olar ki, bütün xalqların dillərinə keçmiş və hər bir xalq öz tələffüzünə uyğun şəkildə onu ifadə etmişdir. Belə ki, almanlar buna “filozofi”, ingilislər “filosofi”, ruslar “filosofiya” deyirlər., bizə isə bu söz ərəblərdən “fəlsəfə” şəklində keçmişdir. Lakin məsələ heç də bu sözün hərfi mə'nasında deyildir. Bir elm olaraq onun predmeti, əsas məzmunu, başlıca məsələləri nədən ibarətdir? Bütün bunlar fəlsəfə tarixində müxtəlifcəsinə izah olunmuş, filosofların məsələn: qədim yunan filosofu Platon fəlsəfəni “əbədi və keçici olmayanın dərk olunması” sayırdı. Bu “əbədi və keçici olmayan” isə kənar bir qüvvə, bütün varlığın yaradıcısı olan “ideyalar aləmidir”. Platondan sonra gəlmiş onun tələbəsi və platonun ideyalar aləmini tənqid etmiş Aristotel göstərirdiki, fəlsəfənin məqsədi “şeylərin səbəb və prinsiplərini öyrənməkdir”. Yəni dövrün böyük alman filosofu Hegel fəlsəfə dedikdə “şeylərin fikri olaraq nəzərdən keçirilməsini”nəzərdə tuturdu. Hegelə görə fəlsəfə dövrün fikirdə verilməsi, təfəkkürdəqavranılmasıdır.

Fəlsəfə bütün aləmə bütöv halında yanaşdığından o ümumi dünyagörüşü ola bilir, insanlara aləm və onun hərəkəti haqqında ümumi biliklər, təsəvvürlər verir. Lakin hər cür fəlsəfi dünyagörüşü hələ elmi dünyagörüşü deyil. Dünyagörüşləri müxtəlifdir və onlar özlərinin əsas məzmununu və istiqamətinə görə seçilirlər. Məsələn: din də aləmə bütövlükdə yanaşır, bütün varlığın yaranmasından, mahiyyətindən danışır və s. Lakin dini dünyagörüşü nəinki yanlış və düzgün olmayan dünyagörüşüdür, o elmin tamamilə əksinədir. Dini dünyagörüşü ilə sıx əlaqədar olan idealist dünyagörüşü də düzgün dünyagörüşü deyildir. O elmi və materialist dünyagörüşünün tam əksini təşkil edir. Düzgün və elmi dünyagörüşü təbiət və cəmiyyətin obyektiv inkişaf qanunlarının tələblərini nəzərə almalı, ona uyğun gəlməli, həqiqətlərə əsaslanmalıdır. Elmi dünyagörüşü hər cürə yanlışlıqlara göz yummamalı, cəmiyyətin obyektiv inkişafına mane olan hər bir fikri və baxışı kəskin tənqid etməlidir. Əsil elmi dünyagörüşü cəmiyyəti dəyişdirməyin, inkişaf etdirməyin həqiqi yollarını göstərməlidir. Beləliklə, **fəlsəfə** ictimai şüurun xüsusi forması olub varlıq və idrakın ən ümumi qanunauyğunluqlarını, təfəkkürün varlığa münasibətlərini öyrənir. Mə'lum olduğu kimi hər bir elmdə bir neçə mühüm əsas məsələlər olur. Fəlsəfədə də belə bir məsələ vardır. Məhz bu məsələnin həlli dünyagörüşlərinin xarakterini müəyyən etməkdə əsas rol oynayır. Fəlsəfənin əsas məsələsi ilə demək olar ki, bütün mütəfəkkirlər bu və ya başqa şəkildə məşğul olmuşlar. Fəlsəfənin əsas məsələsini ilk dəfə klassik şəkildə formula etməyə çalışan Hegel olmuşdur. Lakin nə Hegel nə də başqa filosoflar varlığa münasibətini əsas məsələ kimi digər məsələlərdən ayırıb, bütöv və dolğun şərhini verməmişlər. Fəlsəfə tarixində bunu ilk dəfə edən marksizimin böyük banilərindən Z.Engils olmuşdur. O əsas məsələ kimi təfəkkürün varlığa münasibət məsələsini göstərirdi.
Təfəkkürün varlığa münasibəti məsələsində nəyin I-maddi dünyanınmı, yoxsa şüurunmu ideyanınmı və nəyin II olmasını qəbul etmək məsələnin ontoloji (varlıq haqqında təlim) tərəfidir.



Materiyanın I, şüurun, ideyanın II, yəni törəmə olduğunu qəbul edən filosoflar materialist adlandırılmış və fəlsəfədə materializm cəbhəsinə mənsub olmuşlar. Əksinə, ideyanın, şüurun II materiyanın isə II, idealist adlandırmış və onlar fəlsəfədə idealizm cəbhəsini təşkil etmişdir.

Istər materializim və istərsə də idealizm monist (monizm dedikdə bütün varlığın əsasında 1 başlanğıc götürən fəlsəfi təlim nəzərdə tutulur) dünyagörüşüdür. Materialist monizm bütün varlığın əsasında materiyanı, idealist monizm də belə bir əsas olaraq maddi olmayanı (ruhi) götürür ki, bu da birdir. Lakin fəlsəfə tarixində monizmdən fərqli olan və aləmin əsasında 2 başlanğıc götürən təlimdə vardır. Buna dualizm (ikili) deyilir. Onlara görə həm materiya, həm də ideya əzəldən paralel olaraq mövcuddurlar. Dualizm fransız filosofu Dekart ( XVII əsr) və klassik alman fəlsəfənin banisi Kant (XVIII əsr) üçün xas idi.

**QƏDİM ŞƏRQ FƏLSƏFƏSİ.**

Ilk quldarlıq dövlətləri Qədim Şərqdə, xüsusən Misir, Babilistan, Hindistan, Çin, İran və o cümlədən Azərbaycanda meydana gəldiyindən ilk fəlsəfi bilik və təsəvvürlər də Qədim Şərqdə yaranıb inkişaf edir. Qədim Şərq ölkəsində ilk fəlsəfi təsəvvürlər haqqında xeyli materiallar vardır. Biz burada onlardan yalnız bir neçəsini qeyd etməklə kifayətlənmək istəyirik.




Eramızda hələ bir neçə min il əvvəl **Misirdə** ilk fəlsəfi təsəvvürləri ifadə edən abidələrə rast gəlirik. Məsələn: “Arafçının mahnısı” adlanan qədim ədəbiyyat abidəsində göstərilir ki, o biri dünyadan heç kim qayıtmamışdır və axirət dünyasından bəhs etməmişdi. Ona görə də o dünyaya bel bağlamaqdansa, işlərinizi bu dünyada sahmana salmalı, düzəltməliyik. Artıq qədim Misirlilər ilin 365 gündən ibarət olduğunu bilir vəbu haqda müvafiq təqvim düzəltmişdilər. Həmin təqvim hərəsi 30 gün olan 12 aya və 5 əlavə günə bölünürdü. Onlar ulduzları planetlərdən ayırır, bizi ulduz bürcləri və göy cisimlərinə müxtəlif adlar verirdilər. Qədim fəlsəfi təsəvvürlər hələ eramızdan bir neçə min il əvvəl **Babilistanda** da rast

gəlirik. İstehsalın inkişafı ilə əlaqədar olaraq təbiətşünaslıq, astronomiya və riyaziyyat haqqında ilk təsəvvürlər yaranır. Babilistanın riyaziyyatçıları cəbrin əsasını qoymuş, kvadrat və kub kökalmanı bilirdilər, bir sıra həndəsi biliklərin, o cümlədən sonralar məşhur olan "Pifaqor"terminin ilk əsaslarını vermişlər. Qədim Babilistanda məşhur olan "Ağanın qul ilə söhbəti" dir. Burada əsas söhbət insan həyatının mənası ətrafında gedir. Bundan başqa Qədim Şərq incilərindən sayılan "Bilqanus haqqında dastan" və yaxud hər şeyi bilən adamın dastanını da göstərmək olar. Dastanda söhbət, əsasən, Allahlarla mübarizədən və ölməzlikdən gedir. **Hindistanda** fəlsəfənin meydana gəlməsi təxminən eramızdan əvvəl I minilliyin ortalarına təsadüf edir. Qədim hind cəmiyyəti o dövrdə 4 qrupa bölünürdü: Brahmanlar (rahiblər), Kşatrilər ( hərbi aristokratiya), vayşilər (mülkədarlar, sənətkarlar, tacirlər) və şudralar (aşağı təbəqə). Dünya haqqında insan və əxlaq haqqında bir sıra fəlsəfi fikirlər qədim Hind ədəbiyyatı abidəsi olanVedalarda cəmlənmişdir. Burada, əsasən, dini dünya baxışı əks etdirilmişdir. Vedalar 4 hissədən ibarətdir: onların ən qədimləri Samhitlərdir. Qalan 3 qrup isə Samhitlərə yazılan şərhlərdir.

Qədim Hind fəlsəfəsi əsasən 2 istiqamətdə - ortodoksol (vedaları qəbul edən) və q/ortodoksol (vedaları qəbul etməyən) istiqamətlərdə inkişaf edirdi. Burada bir sıra fəlsəfi məktəblər də fəaliyyət göstərirdi. 1)vedanta, 2)mimansa, 3)sankhiya, 4)yoqa, 5)nyaya, 6)vayşika, 7)çaynizm, 8)buddizm, 9)çarvaka-lokayatlar məktəbi.

Qədim **Azərbaycanda** dini-fəlsəfi fikirlər hələ eramızdan əvvəl VII əsrdə zərdüştlük də mövcud olmuşdur. Zərdüştlük bir sıra Şərq ölkələrində yayılmışdı. Zərdüştün vətənindən söhbət gedərkən Orta əsr müəllifləri onun "Azərbaycandan çıxdığını" söyləmişlər. Tədqiqatçılar zərdüştiliyin müqəddəs kitabı Avestanın da məhz bu ərazidə yarandığını təsdiqləyirlər. Avesta (Qanun)- Vendidad, Yasna və Vispered adlı 3 kitabdan ibarətdir. Bunlar Vendidad- şər qüvvələrin dəf edilməsinə yönəldilən qanun, Yasna-ibadət və qurban vermə mərasimi zamanı oxunan ayrı-ayrı qanunlar və Vispered dua xarakterli mahnıları tərənnüm edən qanunlardır. Avestanın əsas ideyası bundan ibarətdir ki, dünyada bir-birinə zidd olan qüvvələr arasında daimi mübarizə gedir. Dünyada mövcud olan bütün şeylər bu mübarizənin nəticəsində yaranır. Hər yerdə işıqla qaranlıq, həyatla ölüm, xeyirlə şər arasında mübarizə gedir. Zərdüştiliyə görə, xeyir Allahı Hörmüz (Ahura-Mazda) əvvəl-axır şər Allahı Əhrimən (Anhra-Manyuya) üzərində qələbə çalacaq, şər həmişəlik yox olacaq. İslama qədər ki dini-fəlsəfi cərəyanlardan manilik və məzdəkilik Yaxın və Orta Şərq xalqlarının mənəvi həyatında mühüm rol oynamışdır. Manilik təlimi III əsrdə İranda və Orta Asiya ölkələrində yayılmışdı. Onun banisi Mani xalis dualizm mövqeyindən çıxış edərək göstərirdi ki, "aləmin 2 başlanğıcı vardır: onlardan biri işıq, digəri qaranlıqdır". Məzdəkilik manilik təliminə əsaslanırdı. Həm Məzdəkilikdə, həmdə Manilikdə mövcud olan dualizmi, işıq ilə qaranlığın mübarizəsini əsas götürürdü. Məzdəki təlimində insanlar qarşılıqlı köməyə, bərabərliyə "əmlak ümumiliyinə" çağıran sosial-etik görüşlər mühüm yer tutur. Məzdəkilərin ideyaları sonralar xürrəmilər tərəfindən davam etdirilmişdir.

## ANTİK FƏLSƏFƏ

Antik fəlsəfə eramızdan əvvəl VII-VI əsrlərdə meydan gəlmiş, eramızın V-VI əsrlərinə qədər davam etmişdir. Antik Dövrün fəlsəfi fikrinin meydana gəlməsi və inkişafına Şərq fəlsəfəsinin, xüsusilə, Misir, Babilistan və İran filosoflarının böyük təsiri olmuşdur. Antik dövrdə həm idealist təlimlər, həm də materialist məktəblər fəaliyyət göstərmişlər. Antik fəlsəfənin inkişafı aş-kı 4 əsas mərhələdən keçmişdir:




**I mərhələ** Sokrata qədərki mərhələ adlanır. I mərhələdə Milet məktəbi, Heraklit, Eley məktəbi, Pifaqor, Anaksaqor və Yunan atomistləri fəaliyyət göstərmişlər. Milet məktəbini əsasını **Fales** ( eramızdan əvvəl 640-562) qoymuşdur. Fales hər şeyin əsasını suda görürdü. O belə hesab edirdi ki, bütün mövcudat sudan yaranır, istər üzvi və istərsə də qeyri üzvi aləmi sudan kənarda təsəvvür etmək mümkün deyil.

Milet məktəbinin II ən böyük nümayəndəsi **Anaksimandr** idi. Anaksimandr Falesin tələbəsi olmuş, fəlsəfə ilə yanaşı təbiət elmləri, xüsusilə də astranomiya ilə də məşğul olmuşdur. Anaksimandr ilkin başlağıcı, dünyanın əsasını təşkil edən, konkret forması olmayan, "Apeyron" adlandırılan substansiyada görür, onu əbədi, sonsuz varlıq hesab edirdi. Milet məktəbinin III görkəmli nümayəndəsi **Anaksimen** Falesin və Anaksimandrın tələbəsi olmuş, onların təlimlərini əsaslandırmış və inkişaf etdirmişdir. Anaksimen havanı hər şeyin başlanğıcı hesab edirdi. O deyirdiki ki, hər şey havadan yaranır və son nəticədə havaya çevrilir. **Pifaqor** Anaksimandr və Anaksimenin müasiri olmuşdur. Pifaqorçular I növbədə riyaziyyat və həndəsə ilə məşğul olmuşlar, elə buradan da onların ədədlər haqqındakı fəlsəfi təlimi meydana gəlmişdir. Bütün mocudatın mahiyyətini mücərrəd təfəkkürün məhsulu olan ədədlərdə axtarmaq lazımdır. Pifaqorçuluq antik fəlsəfədə I idealist məktəb olmuşdur.

**II mərhələ** klassik mərhələ adı ilə məşhurdur. Bu mərhələ eramızdan əvvəl V əsrin yarısından başlayaraq eramızdan əvvəl VI əsrə qədər davam etmişdir. Bu mərhələ, əsasən Sokrat, Platon və Aristotelin adı ilə bağlıdır. Klassik dövr fəlsəfəsinin ən görkəmli nümayəndlərindən biri **Sokrat** idi. Sokrat fəlsəfəsinin əsasını insan problemi təşkil edirdi. Sokratın insan haqqındakı fəlsəfi düşüncələrində əsas məsələlərdən biri də xeyirxahlıq və onun mahiyyəti haqqındakı fikirləridir.

Antik yunan fəlsəfəsinin klassik dövründə şöhrət tapmış filosoflardan biri də **Platon** olmuşdur.O, Afinada özünün şəxsi fəlsəfi məktəbini yaradaraq onu Akademiya adlandırdı. Son nəticədə bu fəlsəfi məktəb antik idealizmin mərkəzinə çevrildi. Platon fəlsəfədə obyektiv idealizm mövqelərindən çıxış etmişdir. Qədim yunan fəlsəfəsinin klassik mərhələsinin ən görkəmli nümayəndəsi **Aristoteldir.** Aristotelin xidmətləri əvəzsizdir. Aristotel Makedoniyanın Stagir şəhərində həkim ailəsində anadan olmuşdur. O, 17 yaşında ikən doğma şəhərini tərk edib Afinaya gedərək, Platonun akademiyasına daxil olmuş və ömrünün 20 ilini orada keçirmişdir. Platonun ideyalar haqqında təlimi Aristotelə böyük təsir göstərmişdir. Lakin Akademiyaya daxil olduqdan 10 il sonra o, müstəqil fikirlər söyləməyə, öz müəlliminin təliminə qarşı çıxmağa başladı. Aristotel 150-yə qədər elmi əsərin və fəlsəfi trakfatın müəllifidir. Aristotelin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, o, varlıq haqqında xüsusi bir təlim yaradmış, onu " I fəlsəfə - metafizika adlandırmışdı. Aristotel fəlsəfənin ən mühüm məsələlərindən biri olan ontologiyaya xüsusi diqqət yetirmiş və hər cür varlığın əsasını "I materiyada" görürdü. Aristotelin əsərlərində bir sıra dialektik fikirlərə rast gəlirik. O "Metafizika" və "Fizika" əsərlərində hərəkət haqqında xüsusi təlim yaratmışdır.

**III mərhələ** Ellinizm mərhələsi adlanır. Makedoniyalı İsgəndərin dövründə Asiya və Qara dəniz sahillərindəki mədəniyyət şərti olaraq "Ellinizm" mədəniyyəti adlanırdı. Bu mərhələ e.ə. VI əsrin axırından II əsrə qədər olan dövrü əhatə edir. Bu dövrdə klassik mərhələdən fərqli olaraq xeyli fəlsəfi məktəblər müydana gəlir. Özü də bunlar, Platon və Aristotel fəlsəfəsinin təsiri altında yaranırdı.

**IV mərhələ** fəlsəfə tarixinə Roma mərhələsi kimi daxil olmuşdur. Bu Antik fəlsəfənin inkişafında sonuncu mərhələdir. O, e.ə. I əsrdən başlayaraq eramızın V- VI əsrlərinə qədər davam etmişdir.

## ORTA ƏSR QƏRBİ AVROPA FƏLSƏFƏSİ.

Orta əsrlərdə Qərbi Avropa həyatında dini dünyagörüşü hökmranlıq edirdi. Materialist təlimlər təqib olunur və arxa plana keçirilirdi. Dini dünyagörüşü o qədər güclü idi ki, füodalizmə qarşı mübarizə istər – istəməz dini forma daşıyırdı. Bu dövrün fəlsəfi və istimai – siyasi fikrinin qabaqcıl nümayəndələri Şərq fəlsəfəsinin, Platonun, Aristotelin, Heraklın və digərlərinin ideya irsinə əsaslanırdılar. Qərbi Avropa fəlsəfəsinin bərqərar olması Filon Aleksandriyski (e.ə. 25 il- e.ə. 50 il). Avreliy Avqustinin (354 il- 430 il) adı ilə bağlıdır. Xristianlıq eramızın I – II əsrlərində Roma imperiyasının Şərq əyalətlərində meydana gəlmişdir. Onun əsas mənbəyi Antik Dövrün ən məşhur dinlərindən olan yəhudi dini idi. Bu dövrdə yeni pifaqorçuların, yeni platonçuların meydana gəlməsi ilə Filon Aleksanriyskinin dini – mistik fəlsəfəsi yarandı. Xristianlıq fəlsəfəsinin I mərhələsi II –VII əsrləri "patristika" adlanan dövrü əhatə edirdi. (lat. Ata dem.) Patristikanın özünü də 2 mərhələyə bölmək olar. I mərhələdə xristianlıq ehkamlarının əsası qoyulmuş, vahid və güclü kilsələr yaradılmışdı. II mərhələdə xristianlığın ehkamları və fəlsəfəsi işlənib hazırlanmışdır. Patristika fəlsəfəsi həm Qərbdə, həm də Şərqdə yaranmışdır. O dövrdə filosoflar 2 cəbhədə inkişaf etmişdilər. I cəbhəyə sxolastika fəlsəfəsinin mühafizəkar nümayəndələri daxil idilər. Onlar deyirdilər ki, aristotelizmin bir sıra fəlsəfi müddəalarını ilahiyyata tətbiq etmək lazımdır. II cəbhədə mütərəqqi cərəyanlar dururdu. Onların nümayəndələrinin fikrincə, əsas diqqət Aristotelin fəlsəfəsinə verilməlidir.

Qərbi Avropa sxolastikasında 2 əsas fəlsəfi cərəyan fəaliyyət göstərirdi. Onun biri nominalizm, digəri isə realizm adlanırdı.

Realizmin nümayəndələri deyirdilər ki, ümumi anlayışlar xüsusi anlayışlardan asılı olmayaraq mövcud olan real varlıqlardır.

Nominalistlər isə (lat. Ad. dem) ümumi anlayışların sadəcə olaraq adlardan, reallıqda mövcud olmayan şeyklərdən ibarət olduğunu iddia edirdilər. Belə ki, ümumi anlayışlar xüsusi anlayışlar vasitəsi ilə mövcuddurlar.

### Orta əsr Şərqdə və Azərbaycanda fəlsəfə.

Fəlsəfi fikir orta əsrlərdə Şərq ölkələrində də geniş surətdə inkişaf etmişdir. Şərq fəlsəfəsində geniş şöhrət tapmış mütəfəkkirlərdən M. Fərabini, İbn Sinanı,İbn Rüşdü xüsusilə qeyd etmək olar. Fərabini 2-ci Aristotel adlandırırdılar. O Fərab şəhərində türk qəbiləsində hərbiçi ailəsində doğulmuşdu. O riyaziyyat, fəlsəfə, tibb və musiqi elmlərinə misilsiz töhvələr bəxş etmişdir.Alimin məşhur əsərlərindən biri "Fəzilətli şəhər əhlinin baxışları" adlı kitabıdır. O bu əsərində "İdeal dövlət" konsepsiyasını irəli sürmüşdü.Onun dövrümüzə qədər 117 kitabı gəlib çıxmışdı. O idrak nəzəriyyəsi məsələlərindən danışarkən elmi ən böyük idrak vasitəsi adlandırmışdı.Onun fikrincə elmlər nəzəri və əməli elmlərə bölünürlər.O məntiqi zəkanın əsası kimi qeyd etmişdir.Onun fikrincə ,məntiq insan idrakının prinsiplərini izah etdiyi kimi , etika da insanın davranış qaydalarını göstərməlidir.

Şərq aləmində Fərabinin davamçısı , öz dövrünün ensklopediyası , filosof və həkimlərin "knyazı" adlandırılan Buxaralı İbn Sina olmuşdur. Onun fikrincə dünya əbədi

və məhvedilməzdir.Onun fəlsəfəsinin ən orjinal hissəsi varlıq haqqında təlimdən ibarətdir.İbn Sina 2 varlığı nəzərdən keçirir: zəruri varlıq və mümkün varlıq.Zəruri varlıq şəksiz varlıq olmaq etibarı ilə mənəvi mahiyyətdir.Mümkün varlıq isə maddi dünyadır.

Azərbaycanda da fəlsəfi fikir şərq ideyasında meydana gəlib inkişaf etmişdir. 11-ci əsrdə Azərbaycanda fəlsəfənin inkişafı Ə. Bəhmənyarın adı ilə bağlıdır.Onun bir sıra qiymətli əsərləri olmuşdu.Bunların içərisində "Təhsil" kitabı mühüm yer tutur. O, varlığı vacib və mümkün olmaqla 2 yerə bölünür. O, əqli idrakı ən yüksək idrak növü adlandırmışdı.12- ci əsrdə Azərbaycanda fəlsəfi fikrin nümayəndələrindən biri Nizami Gəncəvi olmuşdur.O, idealist xarakterli olub, varlığın 4 ünsürdən ibarət olduğunu göstərmişdi.Onun fikrincə Allah dünyanı ilahi hökm ilə yaratmışdı.Onun dediyinə görə kainat həm yuxarıdan aşağıya, həm də aşağıdan yuxarıya doğru qurulmuşdu. 1- ci hal Allahın yaradıcılıq işi ilə , 2- ci hal isə peyğəmbərin meracı ilə əlaqədardır.

13- cü əsrdə yaşamış Azərbaycanın ən görkəmli zəkalı alimi, filosofu N. Tusinin fəlsəfi görüşləri fikir tarixində mühüm yer tutur. Onun 30- dan çox əsəri olmuşdur."Əxlaqi Nasiri" əsəri xüsusilə mühüm yer tutur. N. Tusi varlığa yüksək qiymət verərək onu zəruri və mümkün varlıq olmaqla iki yerə bölmüşdür. Onun fikrincə zəruri varlıq Allah, mümkün varlıq isə gerçək aləmdir. O "Əxlaqi Nasiri" əsərində əxlaqın saflaşdırılmasına həsr etmişdir. O cəmiyyətlə insan və insan və cəmiyyət arasındakı münasibətləri də qeyd etmişdir.

**YENİ DÖVR FƏLSƏFƏSİ.**

Yeni dövr fəlsəfəsi XVI əsrin sonu və XVII əsrin başlanğıcından XX əsrə qədər olan dövrü əhatə edir. Onun meydana gəlməsi hər şeydən əvvəl, Avropa ölkələrinin iqtisadi və siyasi həyatında baş vermiş mühüm dəyişikliklərlə əlaqədar idi. Yeni dövr fəlsəfəsinin meydana gəlməsi həm də kapitalist istehsal münasibətlərinin təşəkkül tapması, təbiət elmlərinin, o cümlədən mexanikanın inkişafı ilə əlaqədar idi. Yeni Dövrdə materialist fəlsəfi cərəyanlarla yanaşı, dualist, subyektiv idealist və obyektiv idealist təlimlər də meydana gələrək inkişaf edirdilər. Yeni Dövr fəlsəfəsinin formalaşması Frensis Bekon və Rene Dekartın adı ilə bağlıdır. **Frensis Bekon** Yeni Dövr ingilis materializminin və təcrübi elmin banisi idi. O, həmçinin öz dövrünün məşhur siyasi xadimi görkəmli ideoloqu kimi tanınmışdı. Fəlsəfi fikrin inkişafı tarixində Bekonun xidməti aşağıdakılardan ibarətdir. I –si. O, Yeni Dövr təcrübi elminin və materialist fəlsəfəsinin əsasını qoymuşdur. II-ci idrakın elmi metodunun işlənib hazırlanmasına çalışmış, dünyanın dərk olunmasına dair bir çox orijinal fikirlər irəli sürmüşdür. III –sü, Orta əsr sxolastikasına, elmi fəlsəfi təlimlərə qarşı mübarizə aparmış, materiya, onun hərəkəti, növləri və formaları haqqında bir sıra orijinal fikirlər söylənmişdir. O, materiyanı bütün mövcudatın əsası və ilkin səbəbi hesab edirdi. Bekon “ikili həqiqət” nəzəriyyəsinin tərəfdarı idi. Onun fikrincə, elmin vəzifəsi təbiət həqiqətlərini, dinin vəzifəsi isə ruhu, o biri dünyanı öyrənməkdən ibarət olmalıdır. **Rene Dekart** fransız filosofu və riyaziyyatçısının xidmətləri az olmamışdır. Fəlsəfə tarixində Dekart dualist fəlsəfi təlimin yaradıcısı kimi məşhurdur. O, göstərirdi ki, dünya bir – birindən asılı olmayan 2 substansiyadan ibarətdir. Onun biri ruhi, digəri isə maddi substansiyadır. Onun fikrincə, insan maddi və ruhi substansiyaların mexaniki surətdə birləşməsindən ibarətdir. Daha doğrusu, insan ruh və cismin vəhdətidir. Dekartın fəlsəfəsi 2 hissədən ibarətdir. Ihissə materialist fizika adlanır. Bu onun təbiət haqqında fəlsəfi təlimidir. II hissə isə, idealist metafizika adı ilə məşhurdur. Materialist fizikada o, hər şeydən əvvəl materiya və hərəkət problemlərini araşdırır.

Yeni Dövr ingilis fəlsəfəsinin görkəmli nümayəndələrindən biri **Tomas Hobbs** idi. O, ingilis fəlsəfəsində materialist ənənəsinin davamçısı kimi tanınmışdır. O, fəlsəfə tarixində ilk dəfə mexaniki materializmin tamamlanmış sistemini yaratmışdır.

Yeni Dövr fəlsəfəsinin görkəmli nümayəndələrindən biri də **Con Zokkdur**. O, Bekonla başlayıb Hobbsa qədər davam edən ingilis fəlsəfəsində emprik xəttin nümayəndəsi kimi çıxış etmişdir. Zokk Bekonun

empirizmini inkişaf etdirmiş, idrak təlimində sensualizmə tərəfdar çıxmışdır. (Qnoseologiyada duyğunu idrakın yeganə mənbəyi hesab edənlərə sensualistlər deyilir).

**KLASSİK ALMAN FƏLSƏFƏSİ**

Klassik Alman fəlsəfəsi nisbətən qısa bir dövrü əhatə edir. Bu dövr XVIII əsrin 80-ci illərindən başlanmışdır. XIX əsrin 70 – ci illərində (1972-ci ildə Feyrbaxın ölümü ilə) başa çatır.

Bu fəlsəfə yeni dövr fəlsəfəsi fikrinin zirvəsini təşkil edir. Onun təşəkkül tapması hər şeydən əvvəl Almaniyada yaranmış iqtisadi və mədəni şəraitlə bağlı idi. Bu dövrdə Almaniyada elm ədəbiyyat və incəsənət sahəsində bir sıra nailiyyətlər əldə edilmişdir. Fizika, kimya, biologiya sahəsində başqa ölkələrdə edilmiş kəşflər artıq burada məlum idi. Bütün bunlar klassik alman fəlsəfəsinin nümayəndlərinə müsbət təsir göstərmişdir. Klassik alman fəlsəfəsi dünyada, fəlsəfi fikir tarixində görkəmli rol oynamışdır. Bu fəlsəfə XVII – XVIII əsrlər fəlsəfəsində hakim mövqe tutan metafiziki metodu tənqidi surətdə təhlil edərək onun elm sahəsində kənarlaşmasına nail oldu. Klassik alman fəlsəfəsinin əsas, nümayəndələri aşağıdakılardır:

1. İohan Herder (1744-1803) fəlsəfi fikir tarixində "Dilin mənşəyi haqqında" (1972), "Bəşəriyyətin" tarix fəlsəfəsinə dair ideyalar (1784-1791), "Mahnılarda xalqların səsi" və s. əsərləri ilə tanınmışdır.
2. İmmanuil Kant
3. İohan Tixte
4. Fredrex Şellinq
5. Hegel Dudvik Feyrbaxı göstərmək olar. Herder, əsasən tarixin fəlsəfi məsələləri ilə məşğul olmuşdur. O, özünün tarix fəlsəfəsində bəşəriyyətin qanunauyğun surətdə humanizmə gəlib çıxması ideatına əsaslanmışdır. Heyder sosial inkişafı kosmoloji inkişafla bütün təbiətin inkişafı ilə üzvi surətdə əlaqələndirilmiş bitki və heyvanat aləminin inkişafının müəyyən mərhələsində insan meydana gəldiyini sübut etməyə çalışmışdır. O, insanı yerin ən ali varlığı hesab etmişdir. Herder yazırdı ki, insan iki aləmin təbiət və humanizm aləminin qoxşağında dayanır. Numanizm insanın öz təbiətindədir. Herderin nöqteyi nəzərincə humanizm həm də insanın Allahı dərk etməyə çalışmasındadır.

İmmanuil Kantın (1724-1804) dünya mədəniyyətinin, elmin, fəlsəfi fikrin inkişafı tarixində xidmətləri böyükdür. Kant XVIII əsrin ən görkəmli mütəfəkkirlərindən biridir. Kantın nəzəri fəaliyyətini iki dövrə bölmolar.

**Şəkil6**



1) Təxminən 1747-ci ildən, yəni "canlı qüvvələrin düzgün qiymətləndirilməsi haqqında fikirlər" əsərindən 1770-ci illərə qədər olan dövrü əhatə edir. Tənqidə qədərki, dövr adlanan bu mərhələdə o əsasən təbii – elmi problemlərlə məşğul olmuşdur. Günəş sisteminin meydana gəlməsi haqqındakı dialiktik fikirləri məhz bu dövrdə irəliyə sürülmüşdür.

2) XVIII əsrin 70- ci illərindən Kantın fəaliyyətinin "tənqidi dövrü" adlanan ikinci mərhələsi başlanır. Onun bu dövrdə yazdığı "xalis zəkanın tənqidi" 1781-ci ildə "əməlin, zəkanın tənqidi" 1788-ci ildə "mühakimə qabiliyyətinin tənqidi" 1790-cı il əsərlərini yazmışdır. Kant fəlsəfədə bir tərəfdən materialist, digər tərəfdən isə idealist olmuşdur.

**AZƏRBAYCAN MAARİFÇİLİK FƏLSƏFƏSİ.**

Maarifçilik ümumdünya mədəniyyəti tarixində keyfiyyətcə yeni bir dövrdür. Azərbaycan maarifçilik fəlsəfəsi XIX əsrin ortalarında formalaşmağa başlamışdır. XIX əsr Azərbaycanda ictimai – fəlsəfi fikrin inkişafında çox mühüm və zəngin bir dövrdür. Həmin dövr Azərbaycan fəlsəfəsi klassik ənənələri, yeni dünyagörüşünü və sosial – siyasi baxışları özündə birləşdirməsi ilə fərqlənir. A. Bakıxanovun, M. F. Axundovun və H. Zərdabinin çoxcəhətli ideya irsi buna parlaq nümunədir. Onların zəngin yaradıcılığı bütövlükdə həmin dövrün idealogiyasında, fəlsəfəsində, ədəbiyyatında yeniləşmə prosesini əks etdirirdi. A. Bakıxanovun, M. F. Axundovun, H. Zərdabinin yaradıcılığı ayrı – ayrılıqda XIX əsrdə Azərbaycanda ictimai fəlsəfi fikrin iankişafında ictimai fəlsəfi fikrin inkişafında 3 mühüm mərhələni təşkil edir. Kapitalizmin inkişafı ilə əlaqədar olaraq ölkədə baş verən radikal ictimai – iqtisadi və mədəni elmi dəyişikliklər cəmiyyətin mənəvi həyatına böyük təsir göstərirdi. Elmin dindən, fəlsəfənin ilahiyyatdan ayrılması məqamı çatmışdır. Bunun ilk rüşeymlərini hələ A. Bakıxanovun dünyagörüşündə görmək olar. A. Bakıxanovun əsərlərinin elmi təhlili göstərir ki, o, sözün keçmiş mənasında son böyük Azərbaycan metafiziki idi. O, I olaraq metafizikanın predmetləri elmin predmetindən fərqləndirmişdir. Elmdə A. Bakıxanov sadəlöhv materialist kimi çıxış edir. Materiyanı varlığın və idrakın yeganə əsası hesab edir, mexaniki hərəkəti materiyanın atributu sayırdı. Metafizikada isə o, idealist və ilahiyyatçı idi.

A. Bakıxanov yaradıcılığı ilə M. F. Axundovun yaradıcılığının çiçəkləndiyi dövr arasında az bir müddət olmasına baxmayaraq, bu dövrdə köhnə metafizikadan maarifçilik fəlsəfəsinə keçildi. Maarifçilərin əsərlərində habelə yeni fəlsəfənin mövzusu, əhəmiyyəti və vəzifələri müəyyən edildi. Belə ki, M. F. Axundov metafizikanı təkzib etməklə kifayətlənməyib pozitiv fəlsəfi sistem yaratdı. Azərbaycanda milli maarifçiliyin vahid, qedrətli bir sistem kimi təşəkkülü onu adı ilə bağlıdır. M. F. Axundovun maarifçiliyi demokratik səciyyə daşıyırdı. O, bütün xalqın, ilk növbədə əzilənlərin, zəhmətkeş kütlələrin arzu və istəklərini ifadə etmişdir. M. F. Axundov məhz həmin məqsədlə də 50 – ci illərdə yazmış olduğu məhşur komediyalarında və "Aldanmış kəvakib" povestinsə milli maarifçiliyin bədii ədəbiyyatda klassik nümunələrini, 60-cı illərdə yazdığı "Kəmalüddövlə məktubları" traktatında isə bu maarifçiliyin fəlsəfəsini yaratmış, onun mükəmməl proqramını hazırlamışdır. M. F. Axundov tərəfindən əsası qoyulmuş maarifçi – fəlsəfi ideyalar sistemi sonralar H. Zərdabi, M. Şahtaxtlı, C. Məmmədquluzadə, Ö. F. Nemanzadə, N. Nərimanov və digərləri tərəfindən daha da inkişaf etdirilmişdir.

Doğma xalqını cəhalət yuxusundan oyatmaq kimi nəcib vəzifəni qarşıya qoyan Azərbaycan maarifçiləri zəmanənin elmi biliklərinin inkişaf səviyyəsinə müvafiq olaraq, anlaşılmaz fəlsəfi ibarələr işlətmədən, xalqın anlayacağı dildə, onun düşüncəsinə uyğun tərzdə yazıb yaratmışlar.

Hələ uşaqlıq yaşlarından dini ədəbiyyatın böyük təsiri altında olan Bakıxanov bir sıra dini fəlsəfi təlimləri mənimsəmişdir. Göstərmək lazımdır ki, islam ehkamını müdafiə edən Bakıxanov eyni zamanda

idrak prosesində elmin roluna böyük qiymət verirdi. O, hesab edirdi ki, elm və din bir – biri ilə uyğunlaşa bilər. Elm də son nəticədə dinin dediklərini təsdiqləyir.

Axundovun fəlsəfi irsində dinin tənqidi mərkəzi yer tuturdu. O, elm və dini bir – birinə qarşı qoyur, onların bir araya sığışmadığını sübut etməyə çalışırdı. Axundov dini tərəqqi yolunda ən böyük maneə hesab edirdi. Axundov öz sosial siyasi idealının həyata keçirilməsində insan ağlına böyük ümid bəsləyir və göstərirdi ki, elm, maarif tərəqqinin əsas amilidir. Axundov hesab edirdi ki, azadlıq insanın təbii hüququdur. Odur ki, hər bir fərd öz fikrini azad surətdə söyləmək, azad şəkildə təbliğ etmək yaşamaq hüququna malikdir.

"Varlıq" haqqında H. Zərdabinin təbii – elmi dəlillərlə əsaslanmış fikirləri də diqqəti cəlb edir. M. F. Axundovdan fərqli olaraq H. Zərdabi varlığın üzvi forması haqqında da dəyərli mülahizələr irəli sürmüşdü. Varlığın öbyektivliyi və maddiliyi ideyası H. Zərdabinin təbii – elmi yaradıcılığında mühüm yer tutur. O, varlıq anlayyışına qeyri / üzvi təbiətlə yanaşı, üzvi təbiətin və onun yüksək forması olan insanı daxil edir. Zərdabiyə görə təbiət öz "varlığında əzəlidir, əbədi xəzinədir".

**FƏLSƏFƏDƏ VARLIQ VƏ MATERİYA PROBLEMİ.**

"Varlıq" fəlsəfi dünyagörüşünün əsasında duran mühüm anlayışlardandır. Fəlsəfədə "varlıq" kateqoriyası və varlıq haqqında təlim olan ontologiya ətrafında həmişə kəsgin mübahisələr getmiş və indi də getməkdədir. Çünki fəlsəfi düşüncələr üçün bu anlayışın mənası və əhəmiyyəti olduqca böyükdür. İnsana dünyanın proseslərindən baş çıxarmağa imkan verən anlayışlar sistemində "varlıq" kateqoriyası və ona sinonim olan "gerçəklik" və "reallıq" anlayışları xüsusi yer tutur.




Ontologiyanın ən geniş anlayışı olan varlıq kateqoriyasının mahiyyətini dərk etmək və onu fəlsəfi kateqoriya kimi səciyyələndirmək üçün gerçəklik və reallıq anlayışlarına nəzər salmalıyıq. Ona görə ki, varlıq kateqoriyasının məzmunu məhz gerçəklik və reallıq anlayışları vasitəsilə açılıb konkretləşdirilir.

**Gerçəklik** keçmişdə, indi mövcud olacaq bütün şeylərin, proseslərin, sistemlərin, hadisələrin məcmusudur. Təbiətdə mövcud olan şeylər, hadisələr, cəmiyyətdə insanların davranışları, şəxsi fikirləri, ideyaları və s. gerçəkliyin ayrı – ayrı fraqmentlərindəndir. Gerçəkliyə daxil olan hadisələrin sürəkliyi olduqca müxtəlifdir. Bəziləri uzun ömürlüdür, bəziləri isə ani baş verir. Buna görə də gerçəklikdə daim

yeni – yeni cisimlər və hadisələr meydana gəlir, qərarlaşır, mövcud olur, sonra isə yenilərinə çevrilirlər. Gerçəklik anlayışına sinonim olan **reallıq** anlayışıdır.




Reallıq çox geniş olub, obyektiv və subyektiv reallıqların cəmi, məcmusu kimi qəbul edilir. İnsan şüurundan kənarda mövcud olan gerçəklik **obyektiv reallıq** adlanır. İnsan şüurunda, insan təfəkküründə mövcud olan gerçəklik isə **subyektiv reallıqdır**. Subyektiv reallıq insanın zehni fəaliyyətinin, daha doğrusu, onun beyninin məhsuludur. Elementar hissəciklər, nüvə, atom, molekul, istimai proseslər və s. obyektiv reallığın ayrı – ayrı elementləridir. Beyinin fəaliyyətinin məhsulu olan fikirlər anlayışlar, obrazlar, elmi və q/ elmi biliklər də reallıq olub, fəlsəfədə subyektiv reallıq anlayışını təşkil edirlər. Şifahi xalq ədəbiyyatında geniş işlənən cin, şeytan, pəri, əjdaha subyektiv reallıqdır. Obyektiv və subyektiv reallıq fərqlənsələr də möhkəm vəhdətdə və əlaqədə olub bir – birinə qarşılıqlı təsir göstərirlər. Obyektiv və subyektiv reallığın bu vəhdəti və əlaqəsi öz ifadəsini fəlsəfənin "varlıq" kateqoriyasında tapır.

Fundamental fəlsəfi kateqoriya olan materiya fəlsəfi və təbii – elmi biliklər sistemində mühüm yer tutur. Bu onunla bağlıdır ki, bütün təbiət elmləri materiyanın konkret növlərini, onların strukturunu, hərəkət və inkişaf qanunlarını öyrəndiyi kimi, heç bir fəlsəfi təlim də materiya anlayışına müraciət etmədən keçinə bilməz. Materiya anlayışı mühüm fəlsəfi kateqoriya kimi insanı əhatə edən aləmin öyrənilməsi prosesində işlənmişdir. Fəlsəfə və təbiətşünaslığın müvəffəqiyyətli inkişafı üçün böyük əhəmiyyətli olan bu vacib məsələ ilk dəfə dialektik materializmdə həll edildi. Həmin fəlsəfənin baniləri fəlsəfi kateqoriya olmaq etibarilə materiya anlayışının məzmununu açaraq göstərdilər ki, **materiya** şüurundan asılı olmadan mövcud olan və duyğu orqanlarımıza təsir edərək şüurumuzda əks olunan obyektiv reallığı ifadə edir.

**FƏLSƏFƏDƏ ŞÜUR PROBLEMI.**

Şüur, onun mənşəyi, mahiyyəti və gerçəkliyə münasibəti məsələsi filosofları daim düşündürən ən aktual problemlərdən olmuşdur. İnsanın dünyada yerini və rolunu, onun ətraf aləmlə qarşılıqlı təsirinin spesifikasiyasını ancaq şüurun təbiətini aydınlaşdırmaq və mahiyyətinə nüfuz etmək yolu ilə açmaq olar. Şüur problemi çox mürəkkəb olub, hazırda yalnız fəlsəfi tədqiqatın deyil, habelə bir sıra humanitar və təbiətşünaslıq elmlərinin, o cümlədən sosiologiyanın, psixoterapiyanın, pedaqoqikanın, informasiyanın tədqiqat predmetinə çevrilmişdir. Problemin pozitiv həlli sahəsində səmərəli addım yalnız keçən əsrin

ortalarında atıldı. F. Engels diqqəti belə bir cəhətə yönəltdi ki, əvvəla, şüur materiyanın özü tərəfindən törədilmişdir. Engelsə görə şüur materiyanın elə zəruri əlamətidir ki, bunsuz materiya natamam, yarımçıq olardı.

Inikas materiyanın bünövrəsində duran ən ümumi xassədir. Maddi aləmin bütün obyektləri, prosesləri öz aralarında fasiləsiz qarşılıqlı əlaqə və təsirdədirlər. Qarşılıqlı təsirdə olan obyektlərin biri digərində müəyyən "iz" buraxmaqla onları müvafiq dəyişikliyə uğradır. Başqa sözlə, qarşılıqlı təsir prosesində təsirə məruz qalan obyekt və proses öz dəyişmələrində təsir göstərən obyektin, hadisənin, müəyyən xassələrini yenidən hasil edir. İn ikasın mahiyyəti aşağıdakılardan ibarətdir. A obyekti V obyektinə təsir edərək onda müəyyən dəyişikliklər yaradır. Bu dəyişikliklər isə bundan ibarətdir ki, V obyekti A obyektinin strukturunu və bir sıra funksional münasibətlərini özündə yenidən hasil edir. V obyektinin bu xassəsi bütün maddi sistemlər üçün ümumi olub materiyanın **"inikas"**xassəsi adlanır. Məs: insanın güzgüdə əksi, dənizin rütubətdə paslanması və s. in ikasa misal ola bilər. Hərəkət və qarşılıqlı təsirin mövcud olduğu hər yerdə in ikas vardır.

Şüurun mahiyyətindən danışmazdan əvvəl qeyd edək ki, insanın şüuru fəaliyyətinə onun fikirləri, duyğuları, hissləri, xarakteri və s. daxildir. İnsanın şüuru onun psixikasının bir hissəsidir. Çünki, psixika şüurdan əlavə şüuraltı və q/şüuru prosesləri də ehtiva edir.




Psixika – orqanizmin xarici gerçəkliyin hissi və ümumiləşdirilmiş obrazlarını yaratmaq və onların tələblərinə uyğun şəkildə ccavab vermək qabiliyyətidir. İnsan psixikası dedikdə onun daxili, subyektiv aləminə mənsub olan hadisələr sistemi, şüuri proseslər dedikdə insanların təfəkkür və iradəsindən keçən psixi hadisələr və fəaliyyət növləri nəzərdə tutulur. Şüuraltı hadisələr isə insan təfəkkürünün nəzarətindən kənarda qalan və buna görə də kifayət qədər nəzarət oluna bilməyən mənəvi hadisələrdir.

**İCTİMAİ ŞÜURUN STRUKTURU**

İctimai şüurun strukturu yəni, onun ayrı – ayrı elementləri cəmiyyətdəki mürəkkəb maddi münasibətlərdən asılı olub, onların dəyişməsi ilə dəyişir. Bütün bu dəyişikliklər ilk növbədə özünü ictimai şüurun strukturunda biruzə verir. İctimai şüurun strukturunun adi şüur, ideologiya və ictimai psixologiya təşkil edir.

**Adi şüur**– insanların gündəlik praktiki həyat fəaliyyətindən meydana gələn ideyalar, təsəvvürlər və baxışların məcmusudur. Gerçəkliklə, həyatla əlaqə nəticəsində meydana gələn adi şüurun fərdi şüurla eyniləşdirmək olmaz, çünki adi şüurun başlanğıc nöqtəsi təkcə şəxsiyyət deyil, həm də böyük sosial qruplardır. O, özündə bilavasitə emprik təcrübəni və biliyi əmək prosesində insanlar arasında əldə olunmuş əxlaq normalarını, təbiət və insanın öz sosial vəziyyəti haqqında kor təbii təsəvvürləri birləşdirir. Adi şüurun sosial –psixoloji cəhətləri cəmiyyətin sosial şəraitinin təsiri altında formalaşır və dəyişir.

**Nəzəri şüur** - adi şüurun mühüm əlaqələrinn və qanunauyğunluqlarının in ikası olub, öz ifadəsini elmdə və başqa şüur formalarında tapır. Adi və nəzəri şüurun belə bölgüsü müəyyən psixoloji müqəddəm şərtlərə əsaslanır. Belə ki, insaın şüurunda adi həyatı, anlayışlar olan gündəlik həyat fəaliyyətində yaranır. Elmi anlayışlar isə "həyati bazara" malik olmadığına baxmayaraq özünün formalaşması və təşəkkül tapması üçün xüsusi təlim müəllimlə, kitablarla ünsiyyət tələb edir. O, həm də alimlərin tədqiqatçıları, kəşfləri incəsənət xadimlərinin və s. fəaliyyəti nəticəsində formalaşır. Real həyatda nəzəri və adi şüur bir – birilə üzvü surətdə bağlıdır. Lakin fəlsəfi analiz üçün şüurun bu 2 elementinin ayrı – ayrılıqda tədqiqi zəruridir. Nəzəri və adi şüur bir – birini əvəz edə bilməz, lakin bir – birinə qarşılıqlı təsir göstərir. Bir – birini zənginləşdirir. Nəzəri şüur adi şüuru dəyişdirməyə, formalaşdırmağa qadirdir.

**İCTİMAİ ŞÜURUN FORMALARI.**

İctimai şüurun aşağıdakı formaları mövcuddur. Siyasi şüur, hüquqi şüur, əxlaq, elm, incəsənət, din, fəlsəfə.




**Siyasi şüur**. İctimai şüurun formalarından biri olan siyasi şüur cəmiyyətin sinifə bölündüyü və dövlətin yarandığı dövrdə formalaşmağa başlamışdır. Siyasi şüur sinifləri insanların sosial qruplaşmasının dövlət hakimiyyətinə olan münasibətləri əsasında yaranan sosial iqtisadi, ictimai siyasi mövqe və mənafeyini əks etdirən ideya və təsəvvürlərin, hiss və əhval –ruhiyyəlik məcmusudur. Siyasət təkcə siniflər arasındakı münasibətlər sahəsi olmayıb, həm də millətlər və etnik qruplar arasındakı münasibəti özündə birləşdirir.

Siyasətdə ən ümdə məsələ dövlət hakimiyyəti məsələsidir. Siyasi şüurun spesifikasiyası bundadır ki, dövlət hakimiyyətinə olan münasibət öz əksini siyasi şüurda daha qabarıq şəkildə tapır. Siyasi şüurun əhatə dairəsi çox genişdir. Buraya həm də ictimai –iqtisadi quruluş, şəxsiyyətin hüquqi statusu, dövlətlərarası münasibətlər, müharibə, sülh və başqa problemlər daxildir.

**Hüquqi şüur:**Hüquqi şüur bütünlüklə cəmiyyətin maraq və tələbatı ilə təyin olunan hüquqi baxışlar, nəzəriyyə və hisslər, hüquqi hadisələr haqqındakı biliklər və onların qiymətləndirilməsinin məcmusudur.

Siniflər, millətlər və dövlətlər arasındakı münasibətləri əks etdirən siyasi şüurdan fərqli olaraq, hüquqi şüur həyati ictimai münasibətlərin iştirakçılarının hüquq və vəzifələri nöqteyi nəzərindən əks etdirir. Hüquqi şüurun xarakterik cəhəti onun hüquqla qırılmaz əlaqəsidir.

Hüquqi şüur başqa ictimai şüur formaları ilə, xüsusilə siyasi, əxlaqi və fəlsəfi şüurla qırılmaz qarşılıqlı əlaqədədir. Onlara təsir etməklə bərabər onların təsirinə məruz qalır. Nəzəri şüurun hər hansı forması kimi hüquq öz müddəalarını məntiqi formada ifadə edir, həmin bilik sahəsinin əvvəlki inkişafına söykənir.

**Əxlaq.** Əxlaq və ya mənəviyyat öz tarixi etibarı ilə ictimai şüurun qədim forması olub, insan cəmiyyətinin formalaşdığı dövrdə meydana gəlmişdir. Əxlaq dedikdə, adətən, cəmiyyətdəki davranış formaları və prinsiplərinin məcmusu başa düşülür. Bəzən mənəviyyata və əxlaqa eyni anlayışlar kimi baxılır. Lakin mənəviyyat daha geniş, əhatəli bir anlayışdır.

**DİALEKTİKA – VARLIQ VƏ İNKİŞAF HAQQINDA TƏLİMDİR.**

Dialektika yunan sözü olub mübahisə etmək, müsahibə aparmaq bacarığı deməkdir. Qədim Yunanstanda dialektika dedikdə, müsahibə yolu ilə müsahibin mühakimələrindəki zidiyyəti aşkara çıxarmaq, həqiqəti sübuta yetirmək sənəti başa düşülürdü. Dialektika obyektiv və subyektiv dialektika olmaqla 2 yerə bölünür.




**Obyektiv dialektika** insan şüurundan xaricdə və ondan asılı olmadan mövcud olan varlığın özünün dialektikası, **subyektiv dialektika**isə obyektiv dialektikanın subyektiv tərəfindən fərdi və ictimai şüurda əks olunmasıdır. Fəlsəfi elm olmaq, etibarilə dialektika inkişaf edən və getdikcə dolğunlaşan biliklər sistemidir. Bu sistemin əsasını müəyyən prinsiplər, qanunlar və kateqoriyalar təşkil edir. Dialektikanın prinsipləri onun əsasını təşkil edən başlanğıc müddəalarıdır. Dialektikanın əsas **prinsipləri** bunlardır:

**1.**Hadisələrin ən ümumi əlaqəsi prinsipi. **2.**Obyektivlik prinsipi.**3.**İnkişaf prinsipi. **4.**Tarixilik prinsipi. **5.**Nəzəriyyə ilə praktikanın vəhdəti prinsipi və b. Bu prinsiplərdə gerçək aləmin ən ümumi əlaqə və münasibətləri əks olunmuşdur. Dialektikanın qanunları və kateqoriyaları da onun zəruri komponentləridir. Dialektika mürəkkəb struktura malik olub, 4 tərkib hissədən ibarətdir. Əvvəla, dialektika təbiət haqqında, onun hərəkəti və inkişafının ümumi qanunları haqqında fəlsəfi təlimdir. **II** cəmiyyət haqqında onun tarixi hərəkəti və inkişafının ümumi qanunları haqqında fəlsəfi təlimdir. **III** dialektika təfəkkür haqqında, onun formaları və qanunları haqqında fəlsəfi təlimdir. Nəhayət **IV** dilaektika idrak haqqında, onun forma və metodları haqqında fəlsəfi təlimdir.

Fəlsəfi elm olmaq etibarilə dialektikanın mürəkkəb xarakteri onun funksiyaları vasitəsilə açılır. Həmin **funksiyalar** aşağıdakılardır:

1. Ontoloji funksiya. Materialist dialektikanın bu funksiyası öz ifadəsini onun təbiət və cəmiyyətin hərəkəti və inkişafının ən ümumi qanunları haqqında elm olmasında tapır.

2. Məntiqi funksiya. Materialist dialektikanın bu funksiyası onun həm də təfəkkür haqqında elm olması ilə səciyyələnir.

3. Qnoseoloji funksiya. Materialist dialektikanın bu funksiyası öz ifadəsini onun idrak haqqında təlim olmasında tapır.

4. Dünyagörüşü funksiyası. Materialist dialektikanın predmetlərindən belə nəticə çıxır ki, o həm də dünyagörüşü funksiyasını yerinə yetirir. Bu funksiya öz ifadəsini insanın təbiətə, cəmiyyətə və özünə münasibəti haqqında dialektik materialist təlimdə tapır.

5. Metodoloji funksiya. Bu funksiyanın mahiyyəti bundan ibarətdir ki, materialist dialektika nəinki inkişaf nəzəriyyəsi, həm də elmi idrakın və praktiki fəaliyyətin ən ümumi metodudur.

6. Qabaqgörənlik funksiyası. İnkişaf haqqında dərin məzmunlu və hərtərəfli təlim olan dialektika keçmişi və indini izah etməklə yanaşı, insana gələcəyi irəlicədən görmək imkanı verir.

**FƏLSƏFƏDƏ INSAN PROBLEMI.**

İnsan yer üzərindəki canlıların ən alisi olmaqla bərabər, həm də ictimai və elmi – texniki tərəqqinin, subyektidir. Odur ki, o, fəlsəfənin ədəbi problemlərindən biridir. Lakin, hər bir dövr "insan" anlayışına öz təsirini göstərmişdir. Quldarlıq quruluşunda yalnız azad adamlar insan hesab edilirdi. Burada qul insan sayılmırdı. Odur ki, Platon qulu heyvan cinsi adlandırır. Aristotel isə "insan siyasi heyvandır", "qul danışan alətdir" deyirdi. Epikür belə hesab edirdi ki, fəlsəfənin əsas məqsədi insanın xoşbəxtliyə çatması üçün təlim yaratmaqdır. Bu təlim insanı ölüm qorxusundan azad edərək xoşbəxtliyə çatdırmalıdır. Orta Əsrlərin islam fəlsəfəsində insan bütün hadisələrin şərhində başlıca yer tuturdu. İslam filosofları göstərir ki, insanın mənəvi simasını müəyyən edən 2 başlıca xətt var: **1. Özünü dərk etmə. 2. Cəmiyyəti dərk etmə.**

İslam fəlsəfəsi insanı bir cisim kimi maddiyatla, bir ruh kimi mənəviyyatla əlaqələndirir.

Dekart isə insanın mahiyyətini onun ağıl və zəkasında görərək yazırdı: "Düşünürəmsə - demək mövcudam".

XVIII əsr Fransız marifçilərindən Russo, Holbaxx Didro və başqaları insan və cəmiyyət problemlərinə daşa çox diqqət yetirmişlər. Onlar göstərirdilər ki, insan azad doğulur, lakin azad olmur.

Alman filosofu F. Nitsşe də insan haqqında bütöv bir təlim yaratmışdır. O, insan iradəsini onun bütöv fəaliyyətinin və hərəkətlərinin başlanğıcı hesab edirdi.

Anri Birqson göstərirdi ki, insanın şüuru 2 cəhətə malikdir: intuisiya və ağıl. Berqsona görə, ağıl həyatı dərk etməyə qabil deyil, bunu yalnız intuisiya yerinə yetirə bilər. Həyatın mənbəyi isə "mütləq şüur", yəni Allahdır. Allah sonsuz həyat və azadlıqdır.

İnsan haqqında təlimlər içərisində **personalizm** xüsusilə diqqəti cəlb edir. Personalizm şəxsiyyəti ilkin yaradıcısı reallıq və ən dəyərli mənəvi sərvət hesab edən fəlsəfi – idealist cərəyandır. Bu cərəyan ABŞ, Fransa və Rusiyada daha geniş yayılmışdır. Onların fikrincə, şəxsiyyət Allahın xüsusi və müvəqqəti daşıyıcısı kimi çıxış edir. Allah öz gücünü yalnız insan vasitəsi ilə həyata keçirə bilər. Beləliklə, bütün şəxsiyyətlər, onların azadlığı Allaha bağlıdır. Onlar belə hesab edirlər ki, cəmiyyətin azad edilməsi hələ insanın azad edilməsi demək deyildir. Əksinə, bəşəriyyətin inkişafı insanın əsarət altına alınması ilə nəticələnir. Onlar insanın bütün bədbəxtliklərinin səbəbini texnikanın inkişafında görürdülər.

**İNSAN HƏYATININ MƏNASI:**

**ÖLÜM VƏ ÖLMƏZLİK.**

İnsan həyatı həm cəmiyyətin həyatı planında, həm də fərdi həyat planında bir – biri ilə sıx əlaqədə olan istehsal, istehlak, ictimai – siyasi mədəni ailə, (nəslin davamı) və başqa həyatı fəaliyyət formalarında cərəyan edir. K. Marks belə bir fikir irəli sürmüşdür ki, insan öz mahiyyətinə görə yaradıcıdır. O həm özünü, həm də öz dünyasını yaradır.

Həyat haqqında çoxlu müxtəlif fikirlər var. Həyat əzab əziyyətdir. "İnsan həyatı acınacaqlıdır". (Seneka) "bütün həyat aldadılmış ümidlərin qiymətidir"ş (Didro) və s. Ümumiyyətlə həyat haqqında mənfi fikirlər daha çoxdur.

İnsan yeganə varlıqdır ki, özünün ölümlü olduğunu başa düşür və bu halı düşüncə predmeti edə bilir. Bunu anlayan insanın reaksiyası ilk baxışda ümidsizlik və çaşqınlıq hissi olmalıdır. Bu əhval – ruhiyyəni aradan götürərək insan yaşamaqda davam edir, hərçənd həyatının müvəqqəti olduğunu bilir. Belə biliyə malik olan insan zəruri olaraq çox ciddi və kəskin sual ilə qarşılaşır: Həyatın mənası və

məqsədi nədir? Belə bir fikir daha çox yayılıbdır ki, bütün bəşəriyyətin yaranmasının mənası və mövcudluğun saxlamaq və onun tərəqqisini təmin etmək üçün səyi gücləndirmək və çoxaltmaqdır. Ayrılıqda götürülmüş hər bir insanın həyatının mənası da elə bununla müəyyən edilir.

Hər bir şəxsin həyatının məqsədi və mənası eyni zamanda bütün insanlar tarixinin, insanın yaşadığı cəmiyyətin məqsəd və mənasınaböyük təsir göstərən sosial ideyalar və fəaliyyətlər ilə də sıx əlaədədir.

Ölümsüzlüyün bir neçə növünü göstərirlər. Ölümsüzlüyün I növü insanların əksəriyyətinə aid olan nəsil artırma genləridir. İnsanların mütləq əksəriyyəti öz sayını artırmağa çalışır, Ölümsüzlüyün II növü öləndən sonra əbədi saxlamaq məqsədilə bədənin mumiyalaşdırılmasıdır. Ölümsüzlüyün III növü ölənin bədən və ruhunun Kainatda "əriməsinə", kosmik cismə qədər yüksəlməsinə, materiyanın əbədi hərəkətinə qovuşmasına inanmaqdır. Ölümsüzlüyün IV yolu insanın həyatı yaradıcılığı ilə əlaqədardır. Elmi kəşf, fəlsəfi əsərlər, böyük hərbi qələbələr və dövlət müdrikliyini nümayiş etdirmək – bütün bunlar qədir bilən insanların yaddaşında yaşayır.

İnsan özünü şəxsiyyət kimi başa düşməsə öz həyatının mənasını da anlaya bilməzi. Öz şəxsiyyətini müəyyənləşdirməkisə özünü başqası ilə müqayisə etmədən mümkün deyil. Həyatın mənası haqqında məsələnin insan tərəfindən qoyulması yalnız o zaman mümkün olur ki, insanda mənlik şüuru baş qaldırır, ləyaqət hissi qüvvətlənir, öz həyatının əhəmiyyəti problemi üzərində düşünməyə başlayır.

Beləliklə, həyatın mənasını düzgün başa düşmək, irəlini görmək- hadisənin sonrakı cərəyanını əvvəlcədən duymaq qabiliyyətinin olmasını tələb edir. Və həyatın bütün sonrakı gedişinə bilavasitə təsir göstərir.

## MƏDƏNIYYƏT VƏ SIVILIZASIYA

Bəşəriyyət artıq eramızın üçüncü minilliyində yaşayır. Onun gələcəyi insanların idrak səviyyəsindən, mədəniyyət və sivilizasiyalılıq dərəcəsindən, intellektual imkanlarından asılı olacaqdır. Bu mənada XXI əsrin "Zəka əsri" olacağını zənn edənlər yanılmırlar. Əsrin zəkası və mentaliteti öz ifadəsini mədəniyyətdə tapır. Alman filosofu Hegelin dediyi kimi, xalqların müdrikliyini öyrənməyin yeganə açarı mədəniyyətin əlindədir.

Filosoflar və mütəfəkkirlər hələ lap qədim zamanlardan başlayaraq mədəniyyət problemləri ilə məşğul olmuş, müxtəlif mövqelərdən olsa da ona öz münasibətlərini bildirmişlər. Ona görə də mədəniyyət anlayışı müxtəlif dövrlərdə, müxtəlif mənalar, çalarlar kəsb etmişdir. Qədim Şərqdə, eləcə də Orta Əsrlər İslam şərqində yaranan fəlsəfi, siyasi və bədii nümunələrdə "mədəniyyət" sözü insanların əxlaq və davranışını, təhsil dərəcəsini, özünü apara bilmək qabiliyyətini ifadə etməklə yanaşı, həm də şəhər və kənd salmaq, onları idarə edə bilmək, qul və kəniz seçə bilmək, başqa insanlarla və xalqlarla müəyyənəlaqədar yaratmaq, bu əlaqələri qoruyub saxlamaq bacarığını da ifadə edirdi. Beləliklə, mədəniyyət çox mürəkkəb ictimai hadisədir. O, insanlar tərəfindən yaradılmış sərvətlərlə bərabər bu sərvətləri yaradanın fəaliyyəti ilə birlikdə mövcuddur. Odur ki, mədəniyyət deyərkən insan fəaliyyətinin üsulları, nəticələri və yaratdığı sərvətlərin ümumi toplusu nəzərdə tutulur.




Mədəniyyətin 2 növü vardır: **1.**Maddi mədəniyyət. **2.**Mənəvi mədəniyyət. İbtidai insanların düzəltdikləri daş və ağac alətlərdən tutmuş müasir mürəkkəb mexanizmlərədək hamısı maddi mədəniyyət nümunələri hesab edilir. Mənəvi mədəniyyət cəmiyyətin mənəvi sərvətlərinin yaradılması və onlardan istifadə olunması prosesidir. Mənəvi mədəniyyətə insanıın mənəvi fəaliyyətinin nəticələri olan elm, fəlsəfə, incəsənət, əxlaq, siyasət, hüquq, cəmiyyətin intelektual və mənəvi inkişaf dərəcəsi aiddir. **Sivilizasiya** latın dilindəki "sivilis" sözündən olub, "vətəndaş", "mülki" mənaların ifadə edir. Sivilizasiya mədəniyyətin sinonimi kimi işlədilir. "Sivilizasiya" anlayışı XVIII əsrdə meydana gəlib, ilk anlar "mədəniyyət" məhfumunu ifadə edirdi. XIX əsrdə isə sivilizasi deyərkən kapitalizmi başa düşürdülər. Mədəniyyət və sivilizasiya, biri digərinə nə qədər yaxın anlayışları olsalar da onları fərqləndirən cəhətlər də vardır. I onu demək lazımdır ki, mədəniyyət daha geniş anlayış olub, sivilizasiyanı da özündə birləşdirir. II sivilizasiya məfhumu çox zaman cəmiyyətin müəyyən bir tarixi inkiaşf pillələrinə aid edilir. III müəyyən bir sivilizasiya daha tez parlayıb, sönə bildiyi halda, mədəniyyət nisbətən sabit və uzun ömürlü olur, çox yaşayır. Və sonrakı nəsillər tərəfindən daha tez qavranılır. IV mədəniyyətin bir neçə qolu, növü olduğu halda, sivilizasiyada bunu müşahidə etmək mümkün deyildir.

Mədəniyyət, eləcə də sivilizasiya eyni və yaxud bir – birinə yaxın olan funksiyaları yerinə yetirirlər;

1. Qnoseoloji funksiya, yəni dərketmə, idrak funksiyası
2. Tarixi varislik funksiyası, yaxud informasiya funksiyası
3. KoKommunikativ ünsiyyət funksiyası
4. İdeoloji funksiya.
5. Tənzimləyici, normativ funksiya.
6. Humanist funksiya.

## POLİTOLOGİYANIN YARANMASI VƏ TARİXİ TƏKAMÜLÜ

Politalogiya siyasət haqqında elmdir. Siyasət haqqında elmin ictimai elmlərin ayrıca bir qolu kimi təşəkkül tapması XIX əsrə təsadüf edir.

Universitet sistemində bu elm ilk dəfə 1880-ci ildə ABŞ –nın Kolumb Universitetində Con Bercessin rəhbərliyi altında politalogiya fakultəsi yaradıldıqdan sonra tədris edilməyə başlandı.

Müstəqil bir elm kimi politalogiyanın tarixi 100 ildən artıq bir dövrü əhatə edir. 1903-cü ildə Amerika siyasi elmlər assosiasiyasının (ASEA) yaranması bu işdə mühüm rol oynamış politalogiya tədqiqatların coğrafiyası dünyanın bir çox ölkələrini əhatə etmişdir.

Politalogiyanın tədqiqat obyekti "siyasi reallıqdır". Bu o deməkdir ki, cəəmiyyətin siyasi həyatı fəlsəfə, sosialogiya, hüquq, siyasi psixologiya və s. elmlər tərəfindən öyrənilsə də, politalogiya bu obyektin yalnız özünə aid olan tərəfini tədqiq edir. Bu obyektin daha əhəmiyyətli qanunauyğun əlaqələrinin və münasibətlərinin üzə çıxarılması isə psixologiyanın predmetini təşkil edir. Onun predmetini siyasət, siyasətin təsisatları vasitəsilə cəmiyyət və şəxsiyyətlə qarşılıqlı münasibətləri təşkil edir. Beləliklə politalogiyanın predmeti və tədqiqat obyekti haqqında deyilənlər göstərir ki, siyasət fenomeninin özü kimi, onu öyrənən elm də müxtəlif dövrlərdə bir birindən fərqli məna kəsb etmiş və mübahisələrə səbəb olmuşdur. Buradan çıxış edərək, politalogiyanın predmetini ümumi şəkildə belə müəyyən edə bilərik. Politalogiya – siyasət və siyasi münasibətlər – siyasi hakimiyyətə görə sosial subyektlər arasındakı münasibətləri öyrənən bir elmdir.

Siyasət mürəkkəb sosial hadisə kimi müxtəlif elmlərin tədqiqat obyektinə daxildir. Bu isə onun mürəkkəb və çoxşaxəli məzmunu ilə sıx bağlıdır.

Siyasət bu və ya digər sinfin, sosial qrupun mənafeyi ilə əlaqədar olduğundan əksər hallarda sinfi xarakter daşımışdır.

Müxtəlif sosial qrupların dövlət hakimiyyətinə münasibəti onların dövləti idarəetmə prosesində iştirakı, siyasətin çox mühüm cəhətidir. Bəzi politoloqlar siyasəti elm deyil, daha çox sənət kimi başa düşməyi təklif edirlər. Bəziləri qeyd edirlər ki, siyasət mümkün olana nail olmaq üçün istifadə olunan siyasi fəaliyyət və normalarının məcmusudur. Bəziləri isə siyasəti nəzərdə tutan və nail olmağın vasitəsi hesab edilir. Məlumdur ki, siyasət iqtisadiyyatın mərkəzləşmiş istifadəsidir. Eyni zamanda iqtisadiyyatla siyasət arasındakı qarşılıqlı əlaqə birtərəfli deyildir. Sizayət nisbi müstəqilliyə malikdir və o, iqdisadiyyatla öz fəal əks təsirini göstərir.

Siyasət ictimai münasibətlərin bütün sahəsi ilə əlaqəsi olan universal fəaliyyət froması, habelə ictimai gerçəkliyin bir çox sahələrini özündə əks etdirən ideyalar sistemidir. Siyasət, ictimai şüurun bütün forması ilə bağlı olub, onlara təsir göstərir və eyni zamanda da onların təsirinə məruz qalır. Dar mənada politalogiya siyasəti, siyasi proseslər, təsisatları bir sözlə siyasi elmin obyektini və predmetini təşkil edən problemləri öyrənən elm sahəsidir. Politalogiya siyasi elm olsa da məlum olduğu kimi siyasət ancaq güclü iqtisadiyyata arxalandıqda real məzmun kəsb edir. Buna görə də politoloqların əsərlərində çox vaxt siyasət və iqtisadiyyat bir – birilə çulğalaşmış halda olur.

## SİYASƏT VƏ SİYASİ MÜNASİBƏTLƏR.

Siyasət bəşər mədəniyyətinin mühüm tərkib hissəsidir. Onun vəzifəsi ictimai inkişafı lazımi istiqamətə yönəltməkdir. İnsan sosial varlıq kimi mövcud olduğu andan onun həyatı daim siyasi həyat olmuşdur. Hətta ilk baxışda siyasətlə heç bir əlaqəsi olmayan ibtidai qəbilənin özündə də bu və ya başqa səviyyədə siyasət mövcud olmuşdur. Hazırda mədəni dünyada siyasətdən kənarda duran adam, demək olar ki, yoxdur. Özünü siyasətdən kənar hesab edən şəxslər də siyasi hakimiyyətin qərarlarına hörmət və əməl etməyə borcludurlar. Bu mənada siyasət, insan üçün zərurət və eyni zamanda tələbat kimi çıxış edir. Cəmiyyət həyatı

insanlar arasında ictimai əlaqələrin bütün təzahürlərini birləşdirir. Zəruri fəaliyyəti həyata keçirən insanlar, bununla da öz ictimai əlaqələrini daim istehsal və təkrar istehsal etmiş olurlar. Nəticədə onların ictimai həyatı yaranır. İctimai həyatın mənbəyi mənafe ilə şərtlənmiş fəaliyyətidir. Buradan aydındır ki, siyasi əlaqələrin spesifikliyi məhz siyasi fəaliyyətlə bağlıdır.

Siyasi əlaqələr müxtəlif səviyyələrdə təzahür edirlər.

Onların nisbətən sadə forması **siyasi münasibətlərdir**. Siyasi münasibətlər insanların siyasi mənafelərinin uyğun gəlməsi yaxud gəlməməsinə əsasən yaranan siyasi əməkdaşlıqda, yaxud siyasi rəqabətdə təzahür edən siyasi əlaqələr formasıdır. İnsanların siyasi əlaqələrinin II əsas forması siyasi İttifqlardır. Onlar siyasi həyatın daha mürəkkəb forması olub, cəmiyyətdə obyektiv təşəkkül tapan sosial birliklərin mövcudluğu ilə şərtlənirlər. Nəhayət, insanlar arasındakı siyasi əlaqələrin ən mürəkkəb forması cəmiyyətin **siyasi sistemidir**.

Cəmiyyətdə təşəkkül tapmış, siyasi struktur siyasi sistemin formalaşmasının müqəddəm şərti kimi çıxış edir. Göründüyü kimi siyasət bir – biriylə çox qarşılıqlı səbəbiyyət əlaqəsində olan müxtəlif hadisələrdən və proseslərdən ibarətdir. Çox

qədimdən siyasət fenomeni ayrı – ayrı mütəfəkkirlərin diqqət mərkəzində olmuş və təhlil etmişdir. Siyasətin izah edilməsinzə geniş yayılmış ənənələrindən biri onun dövlət hakimiyyəti ilə əlaqələndirilmədir. Onun tərəfdaşlarının fikrincə, siyasət dövlət hakimiyyəti adlandırılan xüsusi bir sfera əmələ gətirir və onda reallaşır. Siyasətin mahiyyətinin müəyyən edilməsində daha geniş yayılmış üsullarından biri onun hakimiyyət vasitəsilə izah edilməsidir. Müasir politalogiyanın klassiklərindən biri olan H. Lausell və H. Kaplanın fikrincə, siyasət hakimiyyətin formalaşdırlması və bölüşdürülməsi ilə bağlıdır. M. Veber siyasəti dövlət daxilindəki qruplar arasında hakimiyyətin bölüşdürülməsinə təsir göstərmək kimi başa düşürdü. Təbii ki, hər bir siyasətin məqsədi hakimiyyəti əldə etmək, saxlamaq və onu möhkəmləndirməkdən ibarətdir.

Siyasəti sənət hesab edənlər də vardır. Onların fikrincə əgər siyasət doğrudan da fəaliyyətdirsə, deməli o, makromiqyasda dövləti bacarıqla idarə etmək sənətidir. Lakin bununla belə siyasəti elmi əsaslardan məhrum etmək olmaz.

## AZƏRBAYCAN XALQININ SİYASİ FİKİR TARİXİ.

Siyasət və siyasi münasibətlər haqqında fikirlər Azərbaycan ərazisində qədim zamanlarda meydana gəlmiş və çox böyük təkamül yolu keçmişdir. Azərbaycan xalqının siyasi fikrinin sistemli şəkildə şərh olunduğu ilk böyük yazılı abidə “Avesta”-dır. “Avesta” zərdüştlüyün müqəddəs kitablarının kulliyasıdır. Zərdüştlük dünyanı 2 başlıca qüvvənin, xeyir – şərin mübarizəsi kimi nəzərdən keçirir. “Avesta”da dövlət insanların birgə ünsiyyət forması, bütün cəmiyyətin mühafizəsinin mühüm atributu hesab olunur. “Avesta” güclü dövlət hakimiyyətini təbliğ edir. Burada göstərilir ki, dövlətə xeyirxah hökmdar başçılıq etməlidir. Dövlət başçısı eyni zamanda ali dini başçı, xalqın fikirlərini və arzularını istiqamətləndirən ideoloq olmalı, xalq arasında zərdüştlüyü yaymaqla məşğul olmalıdır. Azərbaycan fəlsəfi fikrinin görkəmli nümayəndəsi olan filosof **Bəhmənyarın** əsərlərində cəmiyyətin inkişafı ilə bağlı bir çox məsələlər şərh

olunmuşdur. O, istismarçı quruluşu tərifləyir və yoxsulluğa dözməyə çağırırdı. Bəhmənyar xüsusi mülkiyyəti müdafiə edir, əsl səadətə çatmaq yolunu təhsildə, mənəvi təkmilləşmədə görürdü. **N. Gəncəvi** feodal cəmiyyətinin əsas bəlasını, nöqsanların başlıca səbəbini ədalətsizliyə, zorakılığa və qarətə əsaslanan dövlətin xarakterində görürdü. Onun siyasi idealı ilk əvvəllər maarifçi, monarx, sonralar isə xalq hakimiyyəti idi. Nizaminin utopik fikirləri Azərbaycanda və bütün Şərqdə müvəqqəti ictimai fikrin inkişafında mühüm rol oynamışdı.

**Marağalı Əhvədi**. XIII-XIV öz əsərlərində müdrik və elmli hökmdarın başçılıq etdiyi feudal dövlətini arzulayırdı. Azərbaycan xalqının və ümumiyyətlə Yaxın və Orta Şərqin siyasi fikrinin ən görkəmli nümayəndəsi **Xacə Nəsrəddin Tusi** olmuşdur. Onun astronomiya, riyaziyyat və s. kimi dəqiq elmlərlə yanaşı, fəlsəfə, məntiq, etika və estetikaya dair yazdığı əsərləri Fərabi, İbn Sina, Biruni, Platon, Aristotel və b. Kimi korifeylərin təlimlərinə əsaslanaraq, Tusi artıq I əsrdə insanlığı indinin özündə də düşündürən bir çox məsələlərə çox düzgün, və sərrast cavab vermişdir. Tusinin siyasi görüşlərində "dövlət" anlayışı mühüm yer tutur. Təsadüfi deyildir ki, o görkəmli dövlətşünas, dövlət nəzəriyyəçisi hesab olunur. Tusinin fikrincə dövlət insanların birliyi, cəmiyyətin təbii vəziyyətidir. O, belə hesab edirdi ki, insanların həyatı dövlətdən kənarda mümkün deyildir. XIX əsr Azərbaycan demokratik siyasi fikrinin ən böyük nümayəndələrindən biri **M. F. Axundovdur**. Azərbaycanda inqilabçı demokratik siyasi fikir onun yaradıcılığında özünün ən yüksək nöqtəsinə çatmışdır. O, feodalizmi zorakı yolla devirmək ideyasını irəli sürmüş, xalqı inqilab etməyə çağırmış, xalq hakimiyyəti ideyaları ilə çıxış etmişdir. Öz yaradıcılığının ilk dövrlərində "Aldanmış kəvakib" əsərini yazmış Axundov burada istibdadın tənqidi, feodal cəmiyyətinin islahat yolu ilə dəyişdirilməsinə çağırışla çıxış etmişdir. Dövlət, onun mahiyyəti və əhəmiyyəti haqqında məsələ Axundovun diqqət mərkəzində olmuşdur. O, dövlət və onun idarə olunması məsələlərini siyasət adlandırdığı xüsusi elm sahəsinə aid edirdi. **H. B. Zərdabi** siniflərin yaranmasının özünəməxsus nəzəriyyəsini yaradaraq cəmiyyəti yoxsullara və varlılara bölür və yazırdı ki, mülkiyyət və sərvət əməyin nəticəsidir.

Zərdabi öz publisistik məqalələrində dövrünün bir sıra əsaslı siyasi məsələlərinə münasibətini bildirmiş və onların bir çoxu haqqında qiymətli fikirlər söyləmişdir.

## SIYASI HAKIMIYYƏT. HAKIMIYYƏTIN TIPLƏRI

Siyasi hakimiyyət politologiyanın mərkəzi kateqoriyalarından biridir.

Siyasi fikir tarixində platon, Aristotel, Siseron, Kant və s. mütəfəkkirlər hakimiyyət fenomenini izah etməyə çalışmışlar. Müasir politologiyada Pareto, Veber və başqalarının əsərləri hakimiyyət nəzəriyyəsinin işlənib hazırlanmasında böyük rol oynamışdır.

Hakimiyyət problemi ilahiyyatçıların da diqqətindən yayınmamışdır. Orta əsrlərdə Akvinalı Foma yazırdı ki, "Hakimiyyətin mahiyyəti ağalıq və tabelik münasibətlərindən ibarətdir, burada insan iyeraksiyasının yuxarı pilləsində olan şəxslərin idarəsi əhalinin aşağı təbəqələrini hərəkətə gətirir. Bu qayda Allah tərəfindən qoyulmuşdur".

Qeyd etmək lazımdır ki, siyasi hakimiyyət anlayışının mənasını açmaq üçün öncə hakimiyyətin mahiyyətini izah etmək tələb olunur.

Müasir ingilis-amerikan politoloji məktəbinin, nümayəndəsi H.Morgentan yazır ki, "hakimiyyət dedikdə, insanın başqa insanların şüuru və hərəkətləri üzərində nəzarət etməsi başa düşülür". Həmin məktəbin digər nümayəndəsi P.Blaunun fikrincə, hakimiyyət bir fərdin, yaxud qrupun başqaları üzərində öz iradəsini həyata keçirməsidir.

Veber hakimiyyətin 3 tipini qeyd edir: İqtisadi hakimiyyət, ideoloji (siyasi) hakimiyyət və hüquqi (dövlət) hakimiyyətin olmasını göstərir. İqtisadi və siyasi hakimiyyət arasında sıx əlaqə mövcuddur. Siyasi hakimiyyət müəyyən mənada, bütün digər hakimiyyət növlərinin davamıdır.

Siyasi hakimiyyətin xüsusiyyəti ondadır ki, o, yalnız qüvvəyə deyil, ictimai münasibətləri qanunvericilik yolu ilə tənzimlənməyə əsaslanır. Beləliklə, **siyasi hakimiyyət** fərdin, yaxud qrupun müvafiq cəmiyyətin hüquq normalarında qanuniləşdirilmiş iradəsini həyata keçirməkdən ibarət real qabiliyyətdir. Siyasi hakimiyyət ağalıq, rəhbərlik, idarəetmə və nəzarət formalarında mövcud olur.

M.Veber xalis, ideal tiplər nəzəriyyəsini əsasən hakimiyyətin 3 tipini müəyyənləşdirir:

1. Ənənəvi hakimiyyət **2**. Harizmalı hakimiyyət **3**. Rasional-leqal hakimiyyət. **Ənənəvi** hakimiyyətin başlıca xüsusiyyəti ondadır ki, burada hökmdar hakimiyyətinin mütləq hədləri ənənələrlə müəyyən olunur. bu isə öz növbəsində onun özbaşınalığını məhdudlaşdırır. Veberin fikrincə **harizmalı** hakimiyyətin əsasında bu və ya başqa bir şəxsiyyətə xas olan q/adi keyfiyyətlər, magik bir qüvvə durur. O, yazırdı ki, harizma ağalığının ən xalis tipi peyğəmbər, hərbi qəhrəman tərəfindən həyata keçirilir. O, sosial-siyasi

böhran şəraitində meydana çıxır. Ənənəvi və legal ağalıq isə nisbətən sabit sosial-siyasi şərait üçün səciyyəvidir. Veber ənənəvi və harizmalı ağalığı **rasional-leqal** hakimiyyəti təhlil etmək üçün bir fon kimi nəzərdən keçirirdi. O, belə hesab edirdi ki, rasional-leqal ağalıq Müasir Qərbi Avropa və Şimali Amerika ölkələrində mövcud olmuşdur. Veberin fikrincə, rasional-leqal hakimiyyətdən o zaman danışmaq olar ki, orada hüquq qaydalarının ədalətli olmasına inam əsasında onlara əməl edilir və onlar reallaşdırılır.

## AZƏRBAYCAN RESPUBLİKASININ SİYASİ SİSTEMİ

Azərbaycan Respublikasının siyasi sistemi milli və tarixi şəraitin xüsusiyyətlərini əks etdirməsi ilə səciyyəvidir. Bütün postsovet dövlətləri kimi Azərbaycan Respublikasının da siyasi sistemi sovet siyasi sisteminin müəyyən təsirini öz üzərində hiss edir.

Ümumiyyətlə, Azərbaycanın mövcud siyasi sistemi demokratiyaya keçid mərhələsindədir. Azərbaycan Respublikasının siyasi siteminin struktur formalaşması əsasən 1995-ci il noyabrın 12-də ölkənin yeni Konstitusiyasının qəbul edilməsi ilə baş çatdı. Konstitusiya ilə Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika kimi müəyyənləşdirmişdir.

Dövlət hakimiyyətinin həyata keçirilməsi formasına görə Azərbaycan prezident üsul idarəsinə əsaslanan respublika parametrlərinə uyğundur. Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycanda müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən 3 hakimiyyət qolu qərarlaşmışdır.

Qanunverici hakimiyyət səlahiyyətlərini həyata keçirən **Milli Məclis**, icra hakimiyyətini həyata keçirən **Prezident** və **Məhkəmə** hakimiyyəti Azərbaycan Respublikasının prezidenti ümumi və birbaşa seçki əsasında 5 il müddətinə seçilir. Konstitusiya ilə prezidentə geniş səlahiyyətlər verilmişdir. Milli Məclisin razılığı ilə baş naziri təyin və azad edir, nazirlər kabinetini istehfaya göndərir, nazirləri təyin edir, mərkəzi və yerli icra hakimiyyəti orqanları yaradır, icra başçılarını təyin və azad edir, dövlət büdcəsini təsdiq üçün Milli Məclisə təqdim edir. Prezident Milli Məclisdə qanunvericilik təşəbbüsü hüququna da malikdir.

Milli Məclis qanunvericilik funksiyasını həyata keçirir. Onun fəaliyyəti və səlahiyyəti statusu 2 əssas istiqamətdə reallaşır: **1**. Milli Məclis geniş məsələlər kompleksi üzrə ümumi qaydaları müəyyənləşdirir. **2**. Milli Məclisin bilavasitə həll etdiyi məsələlər. 1. Milli Məclis prezidenti vəzifədən kənarlaşdırmaq səlahiyyətlərinə malikdir.

Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və iqtisadi məhkəməsi həyata keçirir. Ali məhkəmə cinayət və digər işlər üzrə, iqtisadi məhkəməsi isə iqtisadi mübahisələrə baxılması üzrə məhkəmə icraatını həyata keçirir. Azərbaycanın siyasi sisteminə çox partiyalılıq xasdır. Siyasi partiyalar qanunverici orqanda təmsil olunmaq vasitəsilə dövlət hakimiyyətinin həyata keçirilməsində iştirak etmək imkanı qazanır.

## SIYASI SISTEM ANLAYIŞI

Siyasi elmin aparıcı kateqoriyalarında biri “siyasi sistem” anlayışıdır. Siyasi sistem nəzəriyyəsinin meydana gəlməsi Parsonun adı ilə bağlıdır. T. Parsons cəmiyyəti öz növbəsində iqtisadi, siyasi, mənəvi sistemlərdən ibarət olan mürəkkəb idarəetmə sistemi kimi nəzərdən keçirmişdir. Siyasi sistem cəmiyyətin siyasi həyatının tarixi təkamülünün qanunauyğun nəticəsi kimi meydana gəlir və inkişaf edir. Bu o deməkdir ki, sosial sistem siyasi sistemin mövcudluğu üçün əsas

yaradır. Habelə formalaşması və fəaliyyət göstərməsi üsulunu müəyyən edir. Sosial sistem siyasi sistemdən əvvəl meydana gəlir və ictimai həyatın başlıca problemlərinin həlli imkanlarını şərtləndirir.

Siyasi sisteminin sturkturu ilə əlaqədar siyasi elmdə müxtəlif mövqeyi-nəzərlər qərarlaşıb. Politoloqlar arasında daha geniş yayılmış nöqteyi-nəzər bundan ibarətdir ki, siyasi sistemin tərkibində təsisatlanmış normativ, funksional, kommunikativ və mədəni yarımsistemlər kimi ünsürlər fərqləndirilməlidir. **Təsisatlanmış** sistemə dövlət, siyasi partiyalar siyasi hərəkatlar kimi struktur ünsürləri daxildir. **Normativ** yarımsistemi siyasi normalar, ənənələr, əxlaq, siyasi davranış etikası və s. kimi ünsürlər təşkil edir. **Funksional** yarımsistem siyasi fəaliyyətin forma və istiqamətində, siyasi hakimiyyətin həyata keçirilməsi üsul və metodlarında, yəni siyasi rejimdə özünün idarəsini tapır. **Kommunikativ** yarımsistem, siyasi sistem daxilində müxtəlif yarımsistemlərin və struktur ünsürlərin qarşılqılı əlaqəsi və qarşılıqlı fəaliyyətinin forma və prinsiplərini əhatə edir. Cəmiyyətin siyasi sistemi, müəyyən mənada müstəqilliyə malikdir. İlk baxışda belə görünə bilər ki, onun bu müstəqilliyi mütləqdir, guya onun fəaliyyəti ancaq öz daxili məntiqindən irəli gəlir. Siyasi sistemin müstəqilləşməsi tədricən baş verən bir prosesdir. Bub onun getdikcə artmaqda olan rolunun siyasi vasitələrlə həll olunan problemlərin sayının çoxalması, müasir cəmiyyətlərin həyatını mərkəzləşdirən və əlaqələndirən orqanizmlərin özünəməxsus bütövlüyünün obyektiv ifadəsifir. Siyasi sistemin muxtariyyətini məhdudlaşdıran ilk vasitə iqtisadiyyatdır. Belə ki, siyasi sistemin ayrı-ayrı təsisatları ictimai ehtiyatları, məhsuldar qüvvələrin imkanlarını daim nəzərə almalı olurlar.

**PARLAMENT. ONUN FORMALARI, SƏLAHIYYƏTI STRUKTURU VƏ FUNKSIYALARI.**

Parlament (fransız sözü olub, danışmaq deməkdir) qanunverici hakimiyyət orqanıdır. Parlamentin meydana gəlməsi hakimiyyətin demokratikləşməsi uğrunda aparılan mübarizənin nəticəsidir.

Nümayəndəli hakimiyyət orqanı kimi ilk parlament XIII əsrdə İngiltərədə meydana gəlib. Qanunverici hakimiyyət orqanı kimi parlamentin fəaliyyətinin təşkili mühüm dərəcədə onun təşkilat strukturu və formalarının müəyyənləşdirilməsindən asılıdır. Parlamentin strukturu və formalarını təyin edən mühüm ünsür onun palatalarının sayıdır. Qanunverici orqanın palatalarının sayının müəyyənləşdirilməsi ölkənin siyasi quruluşundan, demokratik durumundan, tarixi ənənələrindən və s. bir çox amillərdən asılıdır. Parlamentlər bir qayda olaraq birpalatalı və ya ikipalatalı olur.




Federativ quruluşa malik olan dövlətlərdə parlamentin palatalarının sayını müəyyənləşdirmək sahəsində heç bir problem qalxmır. Çünki federativ dövlətin ikili xarakteri parlamentin də ikipalatalı formasını şərtləndirir. Başqa sözlə, federativ dövlətlərdə bir-biri ilə qarşılıqlı fəaliyyətdə olan 2 anlayış mövcuddur: bir tərəfdən, bütünlükdə ölkə anlayışı və II tərəfdən, federasiyanın subyektləri anlayışı. (Məs: ABŞ-da ştatlar, Rusiya Federasiyasında respublikalarda və s.).

Parlament təbii olaraq ölkənin belə quruluşunu adekvat surətdə əks etdirir: onun palatalarından biri bütünlükdə ölkənin, digəri isə federasiya subyektlərinin təmsilçiliyi prinsipi əsasında formalaşdırılır. Həm bütünlükdə millətin təmsil olunduğu, həm federasiya subyektlərinin təmsil olduğu palatalar hər ikisi bərabər səlahiyyətlərə malikdirlər. ABŞ-nın kongresi, Braziliya, İsveçrə, Avstraliya parlamentləri yuxarıda sadalanan prinsiplərə maksimum uyğun təşkil edilib. Lakin, AFK, Avstriya, Hindistan və s. federativ ölkələrdə bu prinsip nisbətən pozulur.

İkipalatalı parlament təkcə federativ dövlətlərdə təsadüf edilmir. Parlamentin bu cür strukturunun qərarlaşdığı unitar dövlətlər də az deyil. Müasir siyasi elm unitar dövlətlərdə təkpalatalı parlamentin demokratiya prinsiplərinə daha tam cavab verdiyini əsaslandıran tutarlı dəlillərə malikdir.

Təsadüfi deyildir ki, bir sıra ölkələrdə ikipalatalı parlament sistemindən təkpalatalı parlament sisteminə keçmək meyli özünü göstərir. Asiya və Afrikanın müstəqillik qazanmış ölkələrinin əksəriyyətində təkpalatalı parlamentə üstünlük verilib. SSR-i dağıldıqdan sonra yaranmış dövlətlərin əksəriyyətinin təkpalatalı parlamentə üstünlük verməsi də təkpalatalı sistemin daha demokratik ruhlu siyasi rejimlə səsləşdiyi sübuta yetirən amil hesab edilə bilər.

Parlamentin mahiyyətini onun yerinə yetirdiyi **funksiyalar** daha aydın ifadə edir. Demokratik cəmiyyətlərdə **qanunvericilik** funksiyası parlamentə məxsusdur. Məhz parlament xalqın suveren hüquqlarını və iradəsini qanunlar şəklində ifadə etmək səlahiyyətlərinə malikdir. Parlamenti yalnız qanunvericilik fəaliyyəti ilə məhdudlaşdırılan hakimiyyət orqanı kimi təsəvvür etmək reallıqdan uzaqdır. Hakimiyyət bölgüsünün aydın təzahür etdiyi siyasi rejimlərdə parlamentin hökumətin fəaliyyətinə nəzarəti büdcənin təsdiq edilməsi və ona nəzarət vasitəsilə həyata keçirilir. **Büdcə** hökumətin maliyyə hesabatları şəklində ifadə olunan fəaliyyət proqnozudur. Büdcə parlamentdə təsdiq olunduqdan sonra hüquqi qüvvəyə minir. Parlamentin mühüm funksiyaları sırasında icra **hakimiyyəti orqanlarının formalaşdırılması** xüsusi əhəmiyyət daşıyır. Parlamentin icra hakimiyyəti orqanlarını formalaşdırmaq səlahiyyətinə malik olduğu ölkələrdə

hökumət qanunverici orqan qarşısında məsuliyyət daşıyır. Bu öz ifadəsini onda tapır ki, fəaliyyəti parlament çoxluğu tərəfindən q/qənaətbəxş qiymətləndirilən nazir və bütünlükdə hökumət istefa vermək məcburiyyəti ilə üzləşir. Qeyd edilən prosedura **impiçment** adlanır. İlk impiçment 1742-ci ildə İngiltərə baş nazirinin istefaya getməsi ilə baş tutmuşdur.

## DÖLVƏT VƏ CƏMIYYƏT

Siyasi sistemin başlıca ünsürü dövlətdir. Onun xarakteri, fəaliyyət forma və üsulları siyasi sistemin təbiətini müəyyənləşdirən həlledici amillərdən biridir. "Dövlət" anlayışı siyasi ədəbiyyatda 2 mənada işlədilir. Geniş mənada dövlət müəyyən ərazidə yaşayan, ali hakimiyyət orqanlarında təmsil olunan insanların birliyi kimi başa düşülür. Müasir elmdə dövlət olar mənada müəyyən ərazidə ali hakimiyyəti həyata keçirən təşkilatların və orqanlarının vahid sistemi kimi qavranılır. Dövlətin meydana gəlməsi cəmiyyətin inkişafının aktual problemlərindən biridir.

Azərbaycan xalqının siyasi fikir tarixində dövlət nəzəriyyəsinin banislərindən biri N.Tusi Avropa maarifçilərdən hələ xeyli əvvəl belə bir qənaətə gəlmişdi ki, dövlət insanların könüllü ittifaqı əsasında yaranmışdır və ona görə də onların birliyindən, siyasi cəmiyyətdən başqa bir şey deyildir.

Politologiyada dövlətin yaranmasında əsasən 3 qrup amillərin iştirak etdiyi qeyd olunur. İctimi əmək bölgüsü istehsal vasitələri üzərində xüsusi mülkiyyətin, istismarın yaranması, insanın özünün təkrar istehsalında baş verən mühüm dəyişiklikdir.

Bir sıra fundamental əlamətlərə əsasən də hakimiyyətlə siyasət arasında qarşılıqlı əlaqələrin xarakterinə görə dövlətin inkişafında 2 başlıca mərhələ ayrılır: **ənənəvi dövlət və konstitusiyalı dövlət**.




Ənənəvi dövlət bir qayda olaraq kor təbii şəkildə adət-ənənələr əsasında formalaşmışdır. Ənənəvi dövlətin ən yayılmış forması, monarxiya hesab olunur.

Konstitusiya dövlət insanların şüurlu surətdə cəmiyyəti idarəetmə mexanizmi və sistemi yaratmaq səylərinin nəticəsi kimi qiymətləndirilir. Ənənəvi dövlətdən fərqli olaraq, konstitusiyalı dövlətin tənzimetmə funksiyası insanların həyat fəaliyyətinin bütün sferalarını əhatə etmir. Deyilənlər əsasında belə bir qənaətə gələ bilərik ki: **dövlət** siyasi cəm təsisatı olub, kütləvi hakimiyyət mexanizmi vasitəsilə fərdlərin və cəmiyyətin mövcudluğunun əsaslarını və xalqın suverenliyini təmin edən ərazi birliyidir.

Dövlətin formalaşması dedikdə 3 başlıca ünsür: **dövlətin quruluşu; idarə formaları; siyasi rejimlər** başa düşülür.

## VƏTƏNDAŞ CƏMIYYƏTI VƏ HÜQUQI DÖVLƏT

Dövlət nəzərlərinin maraqlı və eyni zamanda əsrlər boyu mübahisələrə səbəb olmuş problemlərdən biri vətəndaş cəmiyyəti və hüquqi dövlətin nisbəti məsələsidir.

Siyasi nəzəriyyələrdə uzun müddət ərzində "vətəndaş cəmiyyəti" anlayışı "dövlət" termini ilə eyniləşdirilmişdir. Bununla belə az qala lap qədimdən insanlar, onların bir-birindən fərqləndiyini sızmış, birbaşa olmasa da, dolayısı ilə, yəni başqa anlayışların kəməyi ilə bu fərqi ifadə etməyə səy göstərmişlər.

Vətəndaş cəmiyyəti dövlət tərəfindən əlaqələndirilməyən, fərdlərin öz aralarında yetkin iqtisadi, mədəni, hüquqi siyasi münasibətləri olan bir cəmiyyətdir. Vətəndaş cəmiyyəti hər hansı bir cəmiyyət deyildir. O elə bir cəmiyyətdir ki, onun əsas fəaliyyətdə olan üzvü, subyekti öz bütün tələbat və mənafeyi ilə birlikdə insandır. Ona uyğun olan dəyərlərin strukturudur. İctimai münasibətlərin və təsisatların vətəndaş cəmiyyəti sferasına aid edilməsi üçün meyar şəxsiyyətin tələbatının ödənilməsi və və mənafeyinin reallaşdırılmasıdır. Vətəndaş cəmiyyətinin məqsədi insana öz azadlığını həyata keçirtmək imkanı verməkdir. Bunun üçün 2 başlıca şərtin olması tələb olunur: 1-si mülkiyyətə sahiblik və 2-si kamil şəxsiyyət. Vətəndaş cəmiyyəti siyasi rejimin sabitliyinin əsasıdır. O, dövlət hakimiyyəti üçün təməldir.

Hüquqi dövlət ideyası ilk dəfə qədim dünyada meydana gəlsə də, bu termin XIX əsrdə Almaniyada elmə gətirilmişdir. Hüquqi dövlət anlayışı dövlətdə bütün sosial birliklərin o cümlədən ayrı-ayrı fərdlərin hüquqa hörmət etdiyini və ona

münasibətdə bərabər vəziyyətdə olduğunu göstərir. Hüquqi dövlətin əlamətləri aşağıdakılardır.

1. Qanunun aliliyi, hüququn üstünlüyü .
2. Vətəndaşların hüquqlarının müdafiəsi.
3. Hakimiyyət bölgüsü.
4. Konstitusiya nəzarəti.

Tarixən hakimiyyət və qanun həmişə yanaşı mövcud olmuş və inkişaf etmişdir. Əksər hallarda hakimiyyət qanunu üstələmişdir. Belə ki, hər şeydən öncə, qanun heç də hər şeyə qadir deyildir. 2-si dövlət hakimiyyəti qanunla deyil, mübarizə ilə yaranır və yalnız sonra qanunla təsbit olunur. bu mənada yəni mənbəyinə, təkamülünə görə üstünlük hakimiyyətinə məxsusdur. Bununla belə özbaşınalığın qarşısını almaq üçün qanuni hakimiyyətə nəzarət etməlidir.

## AZƏRBAYCAN RESPUBLİKASINDA SİYASİ PARTİYALARIN YARANMASININ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ.

Vətəndaş cəmiyyətinin təhlili zamanı qarşıya çıxan ilk təsisat siyasi partiyalardır. Siyasi partiyalar XX yüzilliyin sonlarında dünyanın siyasi mənzərəsinin ayrılmaz ünsürünə çevrilmişdir. Hazırda demək olar ki, bütün ölkələrdə bu və ya başqa sayda siyasi partiya və partiya sistemi fəaliyyət göstərir. Bununla belə, partiyaların yaranması prosesi bu gün də davam edir. Siyasi nəzəriyyələrdə isə bununla bağlı mübahisələr və fikir ixtilafları bir an da kəsilmir. Müasir siyasi partiyaların 3 başlıca əlaməti vardır: **1.**Cəmiyyətin digər üzvləri ilə münasibətdə müəyyən adamlar qrupunun ayrılması (partiya termini latın dilində “hissə” mənasını verir). **2.**Həmin qrupu birləşdirən təşkilatın olması. **3.**Qrupun cəmiyyətdən ayrılması ideya platforması əsasında da ola bilər, təşkilat isə həmişə siyasi xarakter daşıyır. Deməli buradan məlum olur ki, partiyalar ilk növbədə hakimiyyətə sahib olmağa can atır və bunun üçün məhz siyasi vasitələrdən istifadə edirlər. Deyilənləri yekunlaşdıraq, siyasi partiyaya belə tərif vermək olar; **Partiya**

hakimiyyəti ələ almaq, yaxud hakimiyyətdə iştirak etmək məqsədilə müəyyən ideyanın və ya liderin fəal tərəfdarlarının birləşdiyi məqsədyönlü və mütəşəkkil qrupdur. İctimai quruluşun xarakterindən, siyasi inkişaf səviyyəsindən, demokratik ənənələrin möhkəmliyindən asılı olaraq, siyasi sistemdə fəaliyyət göstərən partiyalar bu və ya başqa partiya sisteminin əmələ gətirirlər. **Partiya sistemi** cəmiyyətdə legal fəaliyyət göstərən, bir-biri ilə qarşılıqlı asılılıqda olan, hakimiyyəti ələ almağa və həyata keçirməyə çalışan partiyaların birliyidir. Partiya sisteminə daxil olan partiyalar ümumi prinsipləri rəhbər tutur və onlara əməl edirlər. Politologiyada partiya sistemlərinin 4 əsas tipi qeyd olunur. **1.**Burjua – demokratik partiya sistemi. **2.** Faşist partiya sistemi. **3.** Avtoritar partiya sistemi. **4.** Sosialist partiya sistemi.

Qeyd olunan partiya sistemlərinin hər birinin özünün səciyyəvi cəhətləri vardır. Belə ki, məsələn burjua demokratik partiya sisteminin əlamətləri aşağıdakılardır: cəmiyyətdə hakimiyyət uğrunda daim legal mübarizə aparılır, hakimiyyətin mənbəyi ümumxalq seçkiləridir və s. faşist partiya sistemləri hazırda mövcud deyildirlər, onlar artıq çoxdan tarix səhnəsindən silinmişdir. Buna baxmayaraq, politologiyada həmin sistemlər geniş və hərtərəfli təhlil olunur. alimlərin fikrincə, faşist partiya sistemi elə bir sistemdir ki, orada yalnız bir partiya legal fəaliyyət göstərir. Qalan partiyaların hamısı qadağan edilmişlər. İlkin və hakim rol oynayır, dövlət aparatının sıxışdırır.

Avtoritar partiya sistemi çox hallarda faşist partiya sistemi ilə eyniləşdirilir. Əslində isə onların arasında müəyyən oxşarlığın olmasına baxmayaraq, bu sistemlər bir-birindən ciddi surətdə fərqlənirlər. Belə ki, avtoritar partiya sistemində hakim amil kimi dövlət əsas götürülür; burada hakim partiya mövcud olur. Burada eyni zamanda başqa partiyalar da mövcud ola bilir.

Sosialist partiya sistemi çox vaxt hegemon partiya sistemi adlandırılır. Onun səciyyəvi əlaməti ondan ibatərdir ki, burada mövcud olan digər partiyalar, bir qayda olaraq, kommunist partiyasının siyasi sistemdəki aparıcı rolunu qəbul edir. Sosializm qurmağa ali məqsəd kimi qarşıya qoyur. Bu partiya sistemi əslində real

çox partiyalılıqdan kənar olmuş, burjua demokratik partiya sisteminə xas olan demokratik prinsiplər burada olmamışdır.

**Azərbaycanda siyasi partiya.**"Siyasi partiya" dedikdə ümumsiyasi ideyaları və məqsədləri olan ölkənin siyasi həyatında iştirak edən vətəndaşlarının birlikləri nəzərdə tutulur. Siyasi partiyalar assosasiyalar azadlığı, hökümlülük, üzvlərinin hüquq bərabərliyi, özünüidarə, aşkarlıq prinsipi əsasında yaranır və fəaliyyət göstərirlər. Azərbaycan tarixində (XX əsrin əvvəllərində) fəaliyyət göstərən "Hümmət", "difai", "İttihad", "Tərəqqi", "Müsavat", "Əhrar" və s. kimi siyasi partiyaları göstərmək olar.

1920-ci ildə Azərbaycan bolşeviklər tərəfindən işğal olunduqdan sonra 1992-ci ilə qədər Azərbaycanda birpartiyalılıq (Azərbaycan Kommunist Partiyası) sistemi mövcud olmuşdur. Müstəqillik əldə etdikdən sonra müxtəlif partiyalar siyasi fəaliyyətə başlamışdır. Hal-hazırda Azərbaycanda 55 siyasi partiya rəsmi dövlət qeydiyyatından keçib:

1. Azərbaycan Milli İstiqlal Partiyası. 2. Azərbaycan Demokrat Partiyası. 3. Azərbaycan Dünyəni (Bozqurd) Partiyası. 4. Ana, Vətən partiyası. 5. Müsavat. 6. Vahid Azərbaycan Partiyası. 7. Milli hərəkat Partiyası. 8. Azərbaycan Liberal Partiyası. 9. Sosial Demokratik Partiyası. 10. Vəhdət Partiyası. 11. AXC, YAP, Tərəqqi Partiyası, Aydınlar Partiyası və s.

## SIYASI REJIMLƏR. TOTALITAR VƏ ANTITOTALITAR REJIMLƏR

Dövlət sistemində müəyyənedici rol siyasi rejimlərə məxsusdur. **Siyasi rejim** idarəetmə metodları və üsullarının məcmusudur. O, dövlətin ictimai üsullarının ictimai vəziyyətini – dövlət hakimiyyətinin fərdə, ictimai təsisatlara, etnik birliklərə və s. münasibətini, cəmiyyətdə siyasi azadlığın səviyyəsini, şəxsiyyətin hakimiyyətə münasibətini və s. səciyyələndirir. Geniş mənada o, həm də vətəndaş cəmiyyətinin strukturlarına aiddir və məcmu halında siyasi sistemin

mahiyyətini ifadə edir. Qeyd etmək lazımdır ki, hər bir tarixi dövrdə siyasi rejimlərin təsnifatı həmin dövrün reallıqlarına əsaslanır.




Bu baxımdan yanaşdıqda, müasir dövrdə ən geniş yayılmış totalitar, avtoritar və demokratik rejimləri bir-birindən fərqləndirmək lazım gəlir. **Totalitar** (latın dilində "bütün, bütöv, tamam, ümumi" mənasını verir). Totalitarizm siyasi həyatın reallığı kimi XX əsrdə meydana gəlsə də, onun ideya əsasları qədim köklərə malikdir. Totalitarizm nəzəriyyəsində bu siyasi rejimi səciyyələndirən əsas cəhətlər kimi aşağıdakılar göstərilir: **1)** Totalitarizm elə bir rejimdir ki, orada vahid kütləvi partiya vardır və bütün hakimiyyət ona tabedir. **2)** Partiyanın özü demokratik yolla deyil, liderin ətrafında təşkil olunmuşdur. **3)** İctimai həyatın bütün sferaları total

nəzarət altındadır. **4)** Terrorçu polis nəzarəti vardır. Polis bütün ölkələrdə olsa da, yalnız bu rejimdə o, terrorçu rolunu oynayır. Kiminsə cəzalandırılması üçün onun günahını məhkəmə yolu ilə sübut etməyə ehtiyac yoxdur. Buna görə də totalitarizmin meydana gəlməsində və fəaliyyət göstərməsində ideologiya mühüm rol oynayır. Totalitar cəmiyyətin ən səciyyəvi cəhəti bütün ictimai həyatın qəti şəkildə ideologiyalaşması, iqtisadi, sosial və mənəvi prosesləri bütünlüklə müəyyən baxışlar sistemi çərçivəsinə salmaq cəhdləridir. Həm də totalitar ideologiya ifrat fəal formada təzahür edir. Bir növ inqilabi mahiyyət daşıyır. Latın dilində təşəbbüsçü, müəllif, bani, yaradıcı və s. mənaları verən **avtoritarlıq** q/demokratik rejimləri və onlara uyğun olan siyasi şüur formalarını ifadə etmək üçün işlədilir. Avtoritorluğun totalitarlıqdan başlıca fərqi bundadır ki, burada hakimiyyət öz-özlüyündə total xarakter daşımır, yəni bu rejim vahid ideologiyaya deyil, milli birlik konsepsiyasına əsaslanır. Ümumiləşmiş şəkildə avtoritar siyasi rejimə aşağıdakı xüsusiyyətlər xasdır: **1)** Avtokratizm (tək hakimiyyətlik). Avtoritar rejimin başlıca 1 nəfər və ya qrup durur. **2)** Hakimiyyətin q/məhdudluğu, onun vətəndaşların nəzarətindən çıxması. Avtoritar rejimlərdə qanunlar olur, lakin bu qanunların qəbul edilməsi rejimin başında duranın idarəsindən asılıdır və onun mənafeyinə tabe edilmişdir. **3)** Hakimiyyətin gücə arxalanması. Bu cəhət avtomatik surətdə güc tətbiq olunmasında ifadə olunmur. Avtoritar rejim kütlə arasında populyarlaşmaq üçün müxtəlif vasitələrə əl atır, lakin əhalinin hər bir narazılığı müqabilində işlənilən vaxt güc tətbiq edilir.

Tarixən avtoritarlığın ən geniş yayılmış forması monarxiyadır. Bununla belə, heç də bütün monarxiyalar avtoritar rejimə əsaslanmır. Müasir dövrdə avtoritar rejimli monarxiyalar bir qayda olaraq, inkişaf etməkdə olan ölkələrdir. (Mərakeş, Səudiyyə Ərəbistanı və s.) (Qərbi Avropanın monarxiya dövlətləri avtoritar rejimə aid deyil. XX yüzilliyin II tarısı bəşər sivilizasiyasının inkişafında yeni bir proseslə dünyanın ayrı-ayrı regionlarında mövcud olan avtoritar siyasi rejimlərin bir-birinin ardınca **demokratik rejimə** transformasiya edilməsi ilə səciyyələnir. Bir sıra ölkələrin, o cümlədən Yunanıstan, İspaniya, Braziliya, Argentina, Çili və Boliviyanın təcrübəsi sübut edir ki, yalnız tədrici inkişaf münasibətlərin tədricən

dəyişdirilməsi əsl demokratiyanın bərqərar olmasını təmin edə bilər. Demokratik rejimə keçid əsas etibarilə bir neçə formada həyata keçirilə bilər. Bunlardan: **1.**"Yuxarıdan" həyata keçirilən islahatlar yoludur. **2.** II yol abtikasiya adlanır. Bu o zaman mümkün olur ki, hakimiyyətdə olan q/demokratik rejim müəyyən əməlləri ilə özünü kütlənin qarşısında gözdən salır və nəticədə hakimiyyəti demokratik qüvvələrə verməyə məcbur olur. **3.** İqtidarlar müxalif arasında əldə eidlmiş razılaşmaya əsasən həyata keçirilən tədrici islahatlar yoludur.

Keçmiş rejimin hakimiyyətdən getməsi demokratikləşdirmə prosesinin ancaq başlanğıcıdır. Əsas çətinlik isə məhz sonradan başlanır. Ölkənin iqtisadi vəziyyəti, çoxmillətlilik, milli konfliktlərin olub-olmaması, siyasi liderlərin fəaliyyəti, ölkə ərazisində müharibənin getməsi və s. həmin prosesin gedişinə öz təsirini göstərir. Demokratik rejimə keçidin reallaşması üçün dünya təcrübəsindən istifadə etmək, siyasi proses qədəm qoyan bütün qüvvələrin mənafelərini nəzərə almaq tələb olunur.

## DEMOKRATIYA ANLAYIŞI VƏ ONUN TARIXI INKIŞAF FORMALARI

"Demokratiya" anlayışı bəşəriyyətə 2500 ildən artıq tanışdır. Bu, qədim Yunan sözü olub "Xalq hakimiyyəti" mənasını verir. Müasir anlamda "Demokratiya" termini bir neçə mənada işlədilir. Onun ən geniş yayılmış məna çaları həmin sözün etimalogiyası ilə bağlıdır. Bu mənada demokratiya hər şeydən əvvəl, xalq hakimiyyətinə əsaslanan dövət quruluşu forması kimi başa düşülür. Demokratiya ideyasının insanların azadlığı və bərabərliyi kimi sosial-siyasi dəyərlərin dərk edilməsi və zəruriliyinin qiymətləndirilməsi təşkil edir. Demokratiya ideyasını ilk irəli sürənlərdən biri olan Herodat onu belə ifadə etmişdir: demokratiya bərabərliyə əsaslanan dövlətdir. Dövlət idarəçiliyi forması olmaq etibarilə demokratiya bir sıra səciyyəvi əlamətlərlə fərqlənir. Ədəbiyyatda

bu baxımdan demokratiyanın aşağıdakı əlamətləri sadalanır: **1.** Xalqın suverenliyinin, hakimiyyətinin hüquqi cəhətdən tanınması və təsisatlanmış şəkildə ifadə olunması. **2.** Əsas dövlət orqanlarının seçkili olması. **3.** Dövlətin idarə olunmasında vətəndaşların hüquq bərabərliyi. Bu prinsipin ən elementar tələbi öz ifadəsini seçki hüququnun ədalətliliyində tapır. **4.** Qərarların çoxluq tərəfindən qəbul edilməsi. Müasir demokratiya nəzəriyyələri reallıqdan əxz edilən təcrübəyə əsaslanaraq **demokratiyanı** konkret fərdlərin, liderlərin xalqın səsvermədə etimadın qazanmaq uğrunda rəqabətinə əsaslanan idarəetmə forması kimi qiymətləndirilir. Cəmiyyətin təşkilinin demokratik formalarının meydana gəlməsi tarixin dərin qatlarına təsadüf edir. Müasir siyasi nəzəriyyələrdə və təsəvvürlərdə demokratiya anlayışının dövlət formasından daha geniş mənada işlədilməsinə üstünlük verildiyini nəzərə alsaq, yuxarıda şərh edilən nöqteyi-nəzərdən demokratiyanın tarixi inkişafının aşağıdakı sxemini təqdim etmək mümkündür: **1.** İbtidai demokratiya **2.** Hərbi demokratiya **3.** Anti demokratiya **4.** Yeni dövrün klassik demokratiyası **5.** Müasir demokratiya. **İbtidai** demokratiya birbaşa demokratiyanın ilk tarixi forması idi. Bütün xalqın və millətlər ibtidai demokratiya mərhələsindən keçmişlər. Demokratiyanın məhz tarixi forması sonralar bu və ya digər kombinasiyalarda demokratik idarəçilik təsisatlarının yaranması üçün ilkin başlanğıc rolunu oynamışdır. İcma münasibətlərinin təkamülü nəticəsində ibtidai demokratiyadan **hərbi** demokratiyaya keçid baş verir. Demokratiyanın bu tarixi formasının qərarlaşdığı ibtidai quruluş qəbilə bağçısı və onun tayfası ətrafında ierarxik sistemin meydana gəlməsi ilə səciyyələnir. Beləliklə də bəzi xalqlarda o cümlədən, Qədim Romada ictimai-dövlət quruluşunun ilk forması hərbi demokrasiya şəklində meydana çıxmışdı.

Demokratik dövlətin ilk forması e.ə. V əsrdə meydana gəlmiş Afina Respublikası hesab olunur. Afina demokratiyası **antik** demokratiya tipini təmsil edirdi. Afina demokratiyasının köklərini "Homer" və daha əvvəlki "Axey" dövrünün hərbi demokratiya münasibətlrində axtarmaq lazımdır. Antik demokratiyanı bir sıra vacib əlamətlər səciyyələndirir. Hər şeydən əvvəl, antik demokratiya birbaşa demokratiya şəklində üzə çıxırdı. Xalq cəmiyyətinin vacib

problemlərinin həll edilməsində, demokratik prosedurların həyata keçirilməsində bilavasitə iştirak edirdi. II antik demokratiya təbiətinə görə kollektivçi demokratiya idi. Fərd dövlətdən, dövlət isə cəmiyyətdən ayrılmadığından, hər kəs öz mənafeyinin reallaşmasını ümumi mənafenin reallaşması ilə əlaqələndirilir. Bunun nəticəsində də vətəndaşlar arasında sosial təbəqələşmə açıq təzahür edən sosial ziddiyətlərə gətirib çıxarmamışdır. **Yeni dövrün** demokratiya haqqında təsəvvürləri və dövlət idarəçiliyi praktikası əsas etibarilə liberatizmin təsiri altında formalaşırdı. Liberalizmin fərdin cəmiyyətdən və dövlətdən ayrılmasına, dövlətin mülki cəmiyyət və vətəndaşla qarşılıqlı münasibətlərdə qanunla səlahiyyətlərinin məhdudlaşdırılmasına, azlığın hüquqlarının müdafiə edilməsinə, bütün insanların siyasi cəhətdən bərabərliyinin bəyan edilməsinə və s. bir sıra fundamental prinsiplərə əsaslanır. Sumpeterin fikrincə demokratiyanın normal fəaliyyət göstərməsi üçün 4 şərt tələb olunur: **1.**Xalqın mühüm dövlət vəzifələrinə seçilməyə layiq ixtisaslı nümayəndələri olmalıdır. **2.**Siyasi orqanlar elə qərarlar qəbul etməlidir ki, xalq onu başa düşə və öz münasibətini ifadə edə bilsin. **3.** İdarəçilik işi yaxşı yaxşı təşkil olunmuş və məsuliyyət hissi yüksək olan bürokratiyaya həvalə edilməlidir. **4.** Yüksək siyasi mədəniyyətdən xəbər verən səmərəli özünənəzarət mexanizmi formalaşmalıdır.

## DEMOKRATIYANIN MÜASIR PRINSIPLƏRI

Demokratiyanın əsas prinsiplərindən biri çoxluğun idarə etməsidir. Demokratiyada çoxluq 3 formada olur: milli demokratiya, sosial demokratiya, liberal demokratiya. Çoxluğun idarəsi prinsipi nümayəndəli demokratiya formasında həyata keçirilir. Lakin çoxluğun idarəsi demokratiyanın mühüm prinsipi və şərti olsa da, azlığın hüquqlarının müdafiəsi təmin edilməyən yerdə həqiqi demokratiya ola bilməz. Demokratiyanın ən mühüm prinsiplərindən biri **hakimiyyət funksiyalarının bölünməsidir.** Hakimiyyət funksiyalarının bölünməsi tərəfləri tarazlaşdırır, onlardan hər hansı birinin üstünlük qazanmasına imkan verir. Demokratiyanın mühüm prinsiplərindən biri də **aşkarlıqdır**. Onun

təmin edilməsində kütləvi informasiya vasitələri mühüm rol oynayırlar. Demokratik idarə üsulu üçün çoxpartiyalılıq səciyyəvidir. Çoxpartiyalılığın olması özü-özlüyündə hələ demokratiya, bir neçə partiyanın olması isə tam hüquqlu çoxpartiyalı sistemin olması demək deyildir. əsil çoxpartiyalılıq isə azad seçkilərin keçirildiyi ölkədə bərqərar ola bilər. Demokratiyanın digər mühüm prinsipi hakimiyyətin həddindən artıq mərkəzləşməsinin qarşısını almaq məqsədilə onun yerli özünüidarə orqanları arasında paylaşdırılmasıdır. Demokratiya vətəndaşların yüksək siyasi fəallığını nəzərdə tutur. Lakin bu fəallıq mpvcud dövlət quruluşunun dağıdılmasına deyil, onun möhkəmləndirilməsinə xidmət etməlidir. Demokratiya güclü dövlət hakimiyyətinin olmasını tələb edir. Hakimiyyət ölkədə sabitliyi təmin etmək üçün xalqın gücünə möhtacdır. Bu o deməkdir ki, xalq kütlələri demokratik idealları və sərvətləri qəbul etməli və onların tələblərinə əməl etməlidirlər. Bu mənada, demokratiya mübarizədir, fasiləsiz mübarizə, ancaq bu qanun çərçivəsində gedən mübarizədir.

Demokratiyanın mühiyyətini təşkil edən xalq hakimiyyəti ideyası əhalinin hakimiyyətin həyata keçirilməsində iştirakının konkret formaları vasitəsi ilə reallaşır. Bu mənada bilavasitə və nümayəndəli (təmsilçi) demokratiya formaları fərqləndirilir. Müasir şəraitdə **birbaşa demokratiya** əvvəlki rolunu itirib, özünü əsas etibarilə yığcam kollektivlərin idarə edilməsində və yerli özünü idarəçilikdə göstərir. Böyük Fransa inqilabı birbaşa demokratiyanın nisbətən təkmilləşmiş variantını ortaya gətirdi. Bu xalqın təmsilçiləri olan deputatların təmsilçilik funksiyasının imperativ mandat əsasında yerinə yetirməsindən ibarətdir. Başqa sözlə deputatlar yalnız seçicilərin onlara verdiyi göstərişlərə uyğun olaraq səs vermək hüququna malik olurlar. Bizim dövrümüzdə buna bənzər forma ABŞ-da prezident seçkilərində seçicilər kollegiyasının timsalında özünü göstərir.

Birbaşa demokratiyada xalq siyasi qərarların qəbul edilməsinin bütün mərhələlərində iştirak edirsə, nümayəndəli demokratiyada əhali bu və ya digər məsələyə hazırlanmış qanun layihəsinə öz münasibətini bildirməklə kifayətlənir. Müasir dövrdə demokratiyanın ən geniş yayılmış və səmərəli forması

**nümayəndəli demokratiyadır.** Onun mahiyyəti vətəndaşların siyasi qərarların qəbul edilməsində birbaşa deyil, hakimiyyət orqanlarına seçilmiş nümayəndələri vasitəsilə iştirak etməsində ifadə olunur. nümayəndəli demokratiyanın hüquqi əsasını seçilənlərə seçicilər arasında təzahür edən təmsilçilik hüququ təşkil edir.

## SEÇKI SISTEMI

Seçki hüququnun həyata keçirilməsində mühüm rol oynayan şərtlərdən biri səsverməni təşkil etmək forması hesab edilir. Səsvermə prosesini həyata keçirmək üçün tətbiq edilən konkret seçki forması seçki sistemi anlayışı ilə ifadə edilir. **Seçki sistemi** dedikdə vətəndaşların seçkili dövlət orqanlarının seçilməsində iştirakını, habelə seçilərlə seçkili dövlət orqanlarının üzvləri arasında əlaqələri müəyyən edən qaydalar başa düşülür. Dünya praktikasında seçki sisteminin 2 xalis tipi – majoritor və proporsional təmsilçilik sistemləri qərar tapıb.



Bunlardan əlavə, bir çox ölkələrdə adları çəkilən sistemlərin ayrı-ayrı ünsürlərini özündə əks etdirən qarışıq seçki sistemi adlanan forma da tətbiq edilir. Hər bir dövlətdə tətbiq edilən seçki sistemi onun siyasətini bir sıra xüsusiyyətlərini əks etdirir. Deyilənləri sübuta yetirmək üçün adları çəkilən seçki sistemlərinin aşağıdakı prinsipial cəhətlərinə diqqət yetirmək kifayət edir. **Majoritar** fransız dilində çoxluq deməkdir. Majoritar sistemi səciyyələndirən cəhətlərdən biri odur ki, bu halda ölkə adətən parlamentdə deputatların sayına uyğun olaraq seçki dairələrinə bölünür və hər bir dairədən bir deputat seçilir. Bəzən majoritar seçki sistemi çox mandatlı dairələr üzrə də aparılır və belə olduqda seçki dairələrinin sayı parlamentdə deputat yerlərinin sayından az olur. Majoritar sistemin mahiyyəti ondan ibarətdir ki, təkmandatlı seçki dairəsində seçicilərin səsinin çoxunu toplayan namizəd parlamentdə təmsil olunmaq hüququ qazanır. **Proporsional** təmsilçilik seçki sisteminin mahiyyəti ondan ibarətdir ki, seçki çoxmandatlı dairələrdə aparılır, seçkilər partiyalara və partiyaların təqdim etdiyi namizədlərin siyahılarına səs verirlər. Proporsional təmsilçilik sistemi ayrı-ayrı ölkələrdə çox rəngarəng variantlarda tətbiq edilir. Bu sistem xalis şəkildə İsraildə və niderlandda qərar tapıb. Proporsional təmsilçilik seçki sistemini səciyyələndirən cəhətlər içərisində bütün ölkənin bir seçki dairəsi təşkil etməsi xüsusi qeyd olunmalıdır. Deputat mondatları partiyaların topladığı səsə uyğun olaraq bölüşdürülür. Proporsional təmsilçilik sistemlərinin üstünlükləri aşağıdakılardır: **1.**Əvvəla majoritar seçki sistemindən fərqli olaraq, buvariantda səslərin itkisi azalır. **2.**Proporsional təmsilçilik seçki sistemi çoxpartiyalılığın inkişafına təkan verir. Hər iki sistemə bir sıra çatışmazlıqlar xas olduğundan, vəziyyətdən çıxış yolunu onların birləşməsindən əmələ gələn **qarışıq sistem** deyilən seçki sisteminin tətbiq edilməsində görürlər. Qarışıq sistem həm majoritar, həm də proporsional təmsilçilik sisteminin ayrı-ayrı ünsürlərini özündə əks etdirir. Azərbaycan seçki sistemi həm majoritar, həm də proporsional sistemlərinin eyni vaxtda tətbiq edilməsinə misaldır.

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi haqqında qanuna görə, Milli Məclisin 125 deputatından 100 nəfəri majoritar, 25 nəfəri isə proporsional təmsilçilik prinsipi əsasında seçilir. Bu cür qarışıq seçki sisteminin müəyyən edilməsi cəmiyyətdə bütün siyasi qüvvələrin, partiyaların ali qanunverici orqanda tam və ədalətli təmsilçiliyinə əlverişli şərait yaratmaq mülahizələrindən irəli gəlir.






**DÖVLƏTIN XARICI SIYASƏT FƏALIYYƏTI**

Xarici siyasət anlayışı siyasi elmdə böyük tarixə malik olan anlayışlardandır. O, siyasi praktikada mühüm rolu və əhəmiyyəti ilə fərqlənən xüsusi fəaliyyət sahəsini ifadə etmək üçün işlədilir. Hər şeydən əvvəl qeyd edilməlidir ki, xarici siyasət dövlətin funksiyalarından biridir. Onun məqsədini dövlətin, dövlət şəklində təşkil olunmuş xalqın mənafelərini həyata keçirmək üçün zəruri xarici şərait yaradılması təşkil edir.

Müasir Qərb siyasi elmində qərarlaşmış ənənələrə görə isə xarici siyasət güc tətbiq etmək və ya razılıq yolu ilə qrup və ya dövlət mənafelərinin həyata keçirilməsilə bağlı fəaliyyətidir. Bəzi müəlliflər bu fəaliyyətin məzmununda davranış qaydaları və üsullarının üstünlük təşkil etdiyini iddia edərək, xarici siyasəti elm, sənət kimi qiymətləndirirlər. H.Morgentan isə xarici siyasəti güclə müqayisəli şəkildə təhlil edir. “Beynəlxalq siyasət də hər bir siyasət kimi güc uğrunda mübarizədir. Onun mütləq məqsədi nədən ibarət olursa olsun, beynəlxalq siyasətin bilavasitə məqsədi həmişə güc hesab olunur”. xarici siyasətin məzmununu millətin xarici təhlükəsizliyinin, dövlətin ərazi bütövlüyünün

suverenliyinin, iqtisadi müstəqilliyinin təmin edilməsi ilə bağlı xüsusi davranış üsul və vasitələrinin məcmusu təşkil edir.

Xarici siyasətin mahiyyətini və məzmununu müəyyənləşdirən önəmli cəhətlərdən biri ondan ibarətdir ki, o, dövlətlərarası münasibətlər sistemində reallaşır.

Xarici siyasətin məzmunu onun qarşısında duran məqsədlərin və həmin məqsədləri həyata keçirmək üsul və vasitələrinin sistemindən ibarətdir. Buna görə də xarici siyasətin funksional məzmunu əsasən konkret tarixi formada reallaşmaq imkanı qazanmış olur.

Xarici siyasətin mahiyyəti sabit, dəyişməzdir. Məzmunu isə dövlətin xarici siyasət fəaliyyəti zamanı qarşıya qoyduğu konkret vəzifələrdən və həmin vəzifələri həyata keçirmək üçün seçilmiş vasitələrdən asılı olaraq dəyişikliyə uğrayır.

Xarici siyasətin mahiyyəti və məzmunu ilə yanaşı daha bir keyfiyyəti də göstərilir. Bu da onun formasıdır.

Xarici siyasət fəaliyyətinin mövcudluq üsulu onun formasında üzə çıxır. Xarici siyasət fəaliyyəti beynəlxalq münasibətlər mühiti ilə qarşılıqlı əlaqə nəticəsində müxtəlif formalar kəsb edir ki, bu formalar bəzən xarici siyasətin məzmununa təsir edəcək dərəcədə müstəqillik nümayiş etdirmək imkanınna malik olur.

Bu mənada xarici siyasətin konkret formaları və ya tipləri bir-birindən kəskin şəkildə fərqlənir. Mürtəce, işğalçı, dinc yanaşı yaşamaq, bloklara qoşulmamaq, tarazlaşdırıcı xarici siyasət və s. kimi xarici siyasət fəaliyyəti formaları deyilənə misaldır.

Lap qədimdən belə bir ideya formalaşmışdır ki, dövlətlərarası qarşıdurma və mübarizə onların mövcudluğundan irəli gələn qanunauyğun haldır. Buna görə də, dövlətin xarici siyasəti onun bütün fəaliyyət sistemində həlledici rol oynayır. L.Qumploviç tərəfindən elmi nəzəriyyə səviyyəsinə qaldırılan həmin cərəyanın

mahiyyəti ondan ibarətdir ki, dövlətlər öz ərazilərini genişləndirmək üçün daim mübarizə aparırlar və bu mübarizə beynəlxalq siyasətin əsas qanunudur. Öz ərazilərini genişləndirmək uğrunda mübarizəyə qoşulmayan dövlət təbii olaraq beynəlxaql həyatın qanunauyğun inkişafından kənarda qalır və məhvə məhkumdur. Deməli, hər bir dövlətin ən ümdə məqsədi hərbi güc toplamaq, başqa dövlətlərlə qarşıdurmada qalib çıxmağa imkan verən zəruri ehtiyatlar hazırlamaqdadır. Buradan da təbii olaraq belə bir nəticə hasil edilir ki, dövlətin daxili siyasəti onun xarici siyasətinə tabedir. Xarici siyasət vəzifələrinin həll edilməsinə xidmət göstərir.

## SOSİOLOGİYANIN PREDMETİ.

## NƏZƏRİ VƏ TƏTBİQİ SOSİOLOGİYA.

Sosiologiya termini iki sözün birləşməsindən ibarətdir: latın sözü “sosietas” (cəmiyyət) və yunan sözü “logos” (söz, təlim). Hərfi mənada sosiologiya cəmiyyət haqqında elm deməkdir. Aydın məsələdir ki, bəşəriyyət öz tarixi ərzində həmişə cəmiyyəti dərk etməyə, ona öz münasibətini bildirməyə səy göstərmişdir. Sosiologiyanın müəyyən ilkin şərtlərin mövcud olduğu XIX əsrdə meydana gəldiyi vaxtdan onun predmeti eynimənalı başa düşülməmişdir. Məs: O, Kont belə hesab edirdi ki, sosiologiya insan zəkasının və psixologiyasının ictimai həyatın təsiri ilə necə təkmilləşdiyini öyrənən yeganə elmdir. Sosiologiya cəmiyyət haqqında elmdir, başqa sözlə, sosioloji idrakın obyektini cəmiyyət təşkil edir. Lakin belə izah sosiologiyanın predmetini tm aydınlaşdırmır. Çünki cəmiyyət ən müxtəlif elmlər tərəfindən öyrənilir. Ona görə də digər elmlərdə olduğu kimi, sosiologiyada da onun obyektini və predmetini fərqləndirmək lazımdır. **Sosiologiya** tarixən müəyyən sosial sistemlərin fəaliyyətinin və inkişafının sosial qanunauyğunluqları, habelə həmin qanunauyğunluqların şəxsiyyətlərin, sosial qrupların, birliklərin, siniflərin, xalqların fəaliyyətində təzahür formaları və mexanizmləri haqqında elmdir.

Sosiologiya bir elm kimi müxtəlif xarakterli vəzifələri yerinə yetirir. Bu vəziyyətlərin xarakteri nəzəri və tətbiqi sosiologiyanı fərqləndirməyə əsas verir.



Belə fərqləndirmə şərti xarakter daşıyır. Çünki nəzəri sosiologiya praktik vəzifələrin, tətbiqi sosiologiya isə nəzəri, elmi vəzifələrin həllindən kənarda qalmır.

**Nəzəri sosiologiya.** Sosial proseslərin qanunauyğunluqlarını aşkara çıxarır. Nəzəri sosiologiya sosial gerçəklik barəsində biliklərin formalaşması, sosial inkişaf proseslərinin izahı və dərk olunması, sosioloji tədqiqatların metodologiyası və metodlarının işlənib hazırlanması ilə bağlı olan elmi problemləri həll edir.

**Tətbiqi sosiologiya.** Real sosial effekt əldə etməyə istiqamətlənmişdir. Tətbiqi sosiologiyanın taixi kökləri Aleksis de Tokvillin (1805-1859), emil Dürkheymin (1858-1917) əsərlərinə gedib çıxır. Hazırda tətbiqi sosioloqların sayı durmadan artır. Onlar həm universitetlərdə və kolleclərdə, həm də xüsusi biznes sahəsində, dövlət və hökumət orqanlarında, müxtəlif təşkilatlarda çalışırlar.

Adətən hansı metodlara üstünlük verməsindən asılı olaraq tətbiqi sosiologiyada 2 başlıca istiqamət ayırd edilir: sosial mühəndislik və klinik sosiologiya.



**Mühəndis–sosioloq.** Çox zaman kiçik miqyaslı sorğular, çöl eksperimentləri aparır, planlaşdırma ilə, dizaynla məşğul olur. **Klinik sosiologiya** sahəsində çalışan mütəxəssis isə diaqnoz qoymalı, "terapevtik" tədbirlər hazırlanmalı və bunları reallaşdırmaq üçün məsləhətlər verməlidir. Bir qayda olaraq hər iki qəbildən olan mütəxəssislər sıx əlaqə saxlayır, öz səylərini birləşdirməyə çalışırlar.

## ŞƏXSİYYƏTİN SOSİOLOGİYASI ANLAYIŞI. ŞƏXSİYYƏTİN SOSİALLAŞMASI VƏ ONUN SOSİAL DAVRANIŞI.

Sosialogiyada mühüm yer tutan xüsusi səviyyəli nəzəriyyələrdən biri də şəxsiyyət sosiologiyasıdır. Məlumdur ki, şəxsiyyət çoxtərəfli sistem olmaq etibarilə müxtəlif elmlər (fəlsəfə, psixologiya, tarix və s.) tərəfindən öyrənilir. Sosiologiya və şəxsiyyəti cəmiyyətin məhsulu kimi, sosial münasibətlərlə qarşılıqlı təsirdə araşdırır. Şəxsiyyəti öyrənərkən ondakı bioloji və sosial keyfiyyətləri bir-birinə qarşı qoyulmamalı, sıx qarşılıqlı əlaqədə təhlil olunmalıdır. Nəzərdə tutlmalıdır ki, insanın sosial həyatı onun bioloji varlığı üzərində formalaşır. Lakin sosial tərəf, bioloji tərəfi təkrar etmir, o insanın prinsipcə yeni keyfiyyətlərini ifadə edir. Sosiologiya ayrıca götürülmüş şəxsiyyətin təhlilindən daha çox yeni şəraitdə fəaliyyət göstərən və oxşar sosial keyfiyyətlərə malik olan insan birliklərinin öyrənilməsinə diqqət yetirir. Bu təlimdə fəaliyyət dedikdə subyektin obyektə məqsədyönlü dəyişdirici təsiri nəzərdə tutulur.

Cəmiyyət ilə şəxsiyyət arasında münasibətlərdə sosial birlik formaları əlaqələndirici vəsilə kimi çıxış edir. Məhz onların tərkibinə daxil olmaq vasitəsilə bu və ya digər insan sosial həyata, ümumilikdə sosial münasibətlər sisteminə qovuşur. Hər bir fərd müəyyən sosial birlik formasına daxil olarkən onun ümumi mədəniyyətini, sosial normalarını və sərvətlərini qəbul edir. Bütövlükdə ayrıca bir fərdin sosial birliyə və onun vasitəsilə cəmiyyətə qovuşması prosesi sosiologiyada

**şəxsiyyətin sosiallaşması** adlanır. Şəxsiyyətin sosiallaşmasında 2 mərhələni ayırd etmək olar: **1)** sosial adaptasiya **2)** interiorizasiya




**Sosial adaptasiya** fərdin sosial-iqtisadi şəraitə, rol funksiyalarına sosial normalara, sosial qruplara və sosial təşkilatlara, sosial təsisatlara uyğunlaşması kimi izah edilə bilər. İnsana, cəmiyyətə münasibətdə adaptasiya başlıca olaraq, ətraf mühitə uyğunlaşmaqla bağlı olan reaksiya xarakterli davranışı əks etdirir.

**İnteriorizasiya** sosial normaların və sərvətlərin insanın daxili aləminə qoşulması prosesidir. Xarici mühitin sosial normaların, sərvətlərinin və digər komponentlərinin daxili "Mən"ə keçməsinin xarakteri hər bir konkret şəxsiyyətin strukturu ilə şərtlənmişdir. Bu sturktur isə bütün əvvəlki təcrübə sayəsində formalaşır. Şəxsiyyət sosial mühitdə, necə dəyərlər, əriyib yoxa çıxmır, həmin mühitlə az-çox müstəqil vahid kimi müəyyən münasibətdə olur.

Sosiologiya şəxsiyyətin sosiallaşması gedişini araşdırarkən bu prosesdə işarələr sisteminin mühüm rolunu qeyd edir. Məsələ bundadır ki, sosiallaşma gedişində başqa şəxslərlə sıx qarşılıqlı təsirdə və təmasda olan bu və ya digər fərd sanki güzgüyə baxmış kimi öz hərəkətlərinə və davranışına müəyyən düzəlişlər edir. İşarələr sistemi (nitq, hərəkət nümunələri və s.). Hər bir sosial birlik formasının ona daxil olan insanların birgə fəaliyyətinin təşkilində, fərdlərin sosial hərəkətlərin

idrə olunmasında mühüm vasitə rolunu oynayır. Belə ki, hər bir fərd müəyyən sosial birliyə daxil olduqda burada qəbul edilmiş olan işarələr sistemini mənimsəyir və öz fəaliyyətində onlardan istifadə edir.

## SOSİAL STATUSLAR. ƏZƏLİ VƏ QAZANILMIŞ STATUSLAR

**Status** fərdin cəmiyyətdə və qrupda tutduğu mövqedir. Məs: "müəllim" statusu ancaq "şagird" statusu üçün məna daşıyır. Satıcı və ya mühəndis üçün heç bir əhəmiyyət kəsb etmir. Müəllim elmi bilikləri şagirdə öyrətməlidir. Qiymətləndirməli və qayda-qanuna riayət edilməsini tələb etməlidir. Şagird isə hər gün dərsə gəlməli, müəlimin tapşırıqlarını yerinə yetirməli və s. başqa sözlə desək müəllim və şagird 2 böyük sosial qrupun sosial status daşıyıcıları olaraq bir-birilə sosial münasibətdə olurlar.

Sosial statuslara xas olan bir sıra xüsusiyyətlər vardır ki, o da bunlardır: 1. Sosial statuslar bir-birilə əlaqədardır, lakin öz aralarında qarşılıqlı əlaqələri yoxdur. 2. Qarşılıqlı əlaqədə ancaq statusların subyektləri olur. (insanlar).

Bir insan çoxllu statuslara malikdir və bir çox qruplarda və təşkilatlarda iştirak edir. Məs: O kişidir, atadır, ərdir, oğuldur, müəllimdir, elmlər doktorudur, orta yaşlıdır, müsəlmandır və s. Bundan başqa bir insan bir-birinə əks olan 2 statusa malik ola bilər. (2 müxtəlif adama qarşı). Məs: Öz uşaqları üçün o atadır, öz anasının isə oğludur. Bir insanın malik olduğu statuslar cəminə **statuslar yığımı** deyilir. Bu anlayışı amerikalı sosioloq, Robert Merton elmə daxil etmişdir.

Sosial statusların bir neçə tipi vardır. Lakin biz onun əsasən 2 tipini bir-birindən fərqləndirəcəyik.



Onlardan biri **əzəli** status, digəri isə **qazanılmış** statusdur. Bu anlayışları ilk dəfə 1936-cı ildə amerikalı sosioloq və antropoloq Ralf Linton elmə daxil etmişdir.

**Əzəli** status insan doğulduğu andan və sonradan isə cəmiyyət tərəfindən mütləq tanınan statusdur. Buna misal olaraq cins, millət, irq aiddir. Məs: Zənci – bu zəzli statusdur. Bu mənada ki, onun dərisinin rəngini və onunla əlaqədar fiziolji xüsusiyyətlərini dəyişmək olmaz. Şamanlar da əzəli statusa malikdirlər. Onlara heç kim qorxulu Ruhlara qalib gəlməyi, xəstəlikləri müalicə etməyi öyrətmir. Onlar anadangəlmə bu irqlərlə məşğuldurlar.

Nəsil sistemində bir çox statuslar əzəli status kimi istəkdən asılı olmayaraq verilir: oğul, qız, ata, ana, əmi, bacı, xala və s. bunlar qan qohumları adlanır. Bəzi qohumlar isə qan qohumu sayılmırlar. Bunlara qanuni qohumlar deyilir. Məs: qayınana – buna qanuni ana, qayınata – qanuni ata və s. Nikah yolu ilə alınan statuslar istəkdən asılı olmayaraq qazanıldığı üçün əzəli status sayılırlar. Bir sözlə **əzəli statuslar** öz istək və arzusundan asılı olmayaraq alınan statusdur.

Bundan fərqli olaraq öz arzusu və istəyi ilə alınmış bütün statuslar isə **qazanılmış statuslar** adlanır. Məs: prezident, banker, professor, tələbə və s. qazanılan statuslardır.

## SOSIAL STRUKTUR ANLAYIŞI.

Müasir şəraitdə sosial strukturun sosioloji baxımdan öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Sosial struktur hər şeydən əvvəl, ictimai münasibətlərin inkişafının, onun yetkinlik dərəcəsinin ən mühüm göstəricisidir. O, bir tərəfdən cəmiyyətin iqtisadi, siyasi və mənəvi inkişafının yekunu kimi çıxış edir. Digər tərəfdən isə həmin proseslərin inkişafına fəal təsir göstərir. “Sosial struktur” anlayışı məhdud və geniş mənada işlənir. Birinci halda sosial struktur dedikdə

konkret sistem, onun struktur elementləri (siniflər, sosial qruplar və təbəqələr) arasındakı münasibətlər başa düşülür. Geniş mənada götürülən sosial struktur sosial-sinif, sosial-ərazi, sosial-etnik, sosial-peşə strukturlarının məcmusunu əhatə edir. Hansı səpkidə yanaşılmasından asılı olmayaraq sosial strukturun başlıca elementləri müəyyən mövqeyə malik olan və sosial funksiya yerinə yetirən fərdlərdir, lakin onlar öz status əlamətlərinə görə qruplar, ərazi, etnik və digər birliklər halında çıxış edirlər.




Siniflər sosial strukturun mühüm elementlərindən biridir. Müxtəlif tədqiqatçılar sinifləri təhlil edərkən onları böyük insan qrupu hesab edir. **Sinif** ümumi şəraitə və istehsal prosesindəki roluna görə birləşən, bunun nəticəsi kimi bölgü münasibətləri yaradan böyük sosial qruplardır. **Sosial qruplar** ictimai istehsalda müəyyən yer tutan və obyektiv surətdə mövcud olan dayanıqlı insan kateqoriyalıdır. Sosial strukturda ziyalılar xüsusi yeri tutur. **Ziyalılar** ali və ya orta ixtisas təhsili tələb edən və ixtisaslı zehni əmək fəaliyyəti ilə peşəkar surətdə məşğul olan insanların birliyidir. **Sosial təbəqələr** müəyyən sinfin, sosial qrupun hissələridir. Onların ayrılması və sosial siması mövcud istehsal üsulunun yetkinliyindən asılıdır. Məs: ziyalıların tərkibində təhsilin səviyyəsinə görə (orta ixtisas, ali, elmi dərəcəsi və adi olanlar) təbəqələri ayırmaq olar.

Sosial strukturun mühüm bir səpkisini sosial-demoqrafik göstəricilər üzrə bölünməsi təşkil edir. Bunlara qadınlar, kişilər, gənclər, pensiyaçılar, məktəblilər və s. daxildir. Sosial demoqrafik qrupların ayrılması üçün meyarlar cins və yaş fərqləridir. Cəmiyyətin strukturunda insanların sosial-etnik birlikləri xüsusi yer tutur. Onların təkibinə qəbilə, tayfa, xalq, millət daxildir. Cəmiyyətin sosial strukturunun mühüm elementindən biri ailədir. Əhalinin siyahıya alınmasında çox vaxt ailə qan qohumluğu və ya nikahla bağlı olan, ümumi büdcəyə malik birgə yaşayan şəxslər qrupu kimi anlaşılır.

## SOSİAL MOBILLİK

**Sosial mobillik** fərd və ya qrupun öz sosial statusunu, cəmiyyətin sosial strukturunda tutduğu yeri dəyişməsidir. Qeyd etmək lazımdır ki, "sosial mobillik" termini sosiologiyaya 1927-ci ildə P.Sosokin tərəfindən daxil edilmişdir. O, sosial mobillik dedikdə yalnız fərdlərin və ailələrin bir sosial qrupdan digərinə keçməsini deyil, bütövlükdə sosial vəziyyətin əsaslı surətdə dəyişməsini nəzərdə tuturdu. Ona görə, sosial mobillik sosial pillələrlə 2 istiqamətdə yerdəyişmədir:




**1)** şaquli, yuxarı – aşağı hərəkət **2)** üfüqi – eyni sosial səviyyədə yerləşmə. **Üfüqi** mobillik dedikdə fərdin və ya sosial qrupun bir sosial vəziyyətdən onunla

eyni səviyyədə olan digərinə keçidi başa düşülür. Məs: fərdin yaşayış yerinin dəyişməsi, bir dini qrupdan başqasına keçməsi və s. **şaquli** mobillik dedikdə isə fərdin və ya sosial qrupun aid olduğu təbəqədən fərqli təbəqəyə keçidi başa düşülür. Məs: xidməti vəzifəsinin artırılması və s. məlumdur ki, sosial mobillik – yəni yüksək statuslu təbəqəyə doğru irəliləmək, həm fərdin öz şəxsi keyfiyyətlərdən, həm də yaşadığı cəmiyyətin strukturundan asılıdır. Lakin hər bir insan bilməlidir ki, fərdlərin və qrupların aşağı statusu kateqoriyadan yüksəyə keçməsi və idarə edən elitanın formalaşmasında iştirak etməsi, cəmiyyətin dinamikliyi və stabilliyi baxımından dövlətin marağında olan ən mühüm məsələlərdəndir.

## QRUPLAR VƏ TƏŞKILATLAR

Qeyd etmək lazımdır ki, qlmi sosioloji ədəbiyyatda “sosial qrup” anlayışı ilə bağlı müəyyən fikir ayrılıqları mövcuddur. **Sosial qrup** başqalarına münasibətdə qrup üzvünün hər birinin ümumi marağını nəzərə almaqla fəaliyyət göstərən fərdlər birliyidir. Bir tərifə görə qrup üçün zəruri olan 2 əsas şərt vardır: **1)** onun üzvləri arasında qarşılıqlı fəaliyyətin olması **2)** Hər bir qrup üzvünün ümumi marağının nəzərə alınması.

Bu tərifə görə, nəqliyyat dayanacağında avtobus gözləyən, bir neçə nəfəri qrup hesab etmək olmaz. İnsanların belə tiplusuna “aqreqasiya” deyilir.

**Aqreqasiya** latın dilində müəyyən fiziki məkanda toplanmış və şüurlu surətdə qarşılıqlı fəaliyyətdə olmayan bir qrup insanların mexaniki birliyidir. Lakin onlar söhbətə başladıqda, birlikdə gözləmə ilə əlaqədar qarşılıqlı fəaliyyətə keçdikdə müəyyən sosial qrup keyfiyyəti əldə edirlər. Qeyd etmək lazımdır ki, bu cür qruplar bilərəkdən deyil, təsadüf nəticəsində əmələ gəlir. Burada sabit maraqlar yoxdur, qarşılıqlı fəaliyyət isə birtərəfli olur. Belə öz-özünə əmələ gələn q/sabit qruplar **kvazi qruplar** adlanır. Kvazi qrup latın dilində "sosial qrupa bənzəyən" mənasını verir. Aqreqasiyalar kvaziqrupa, kvaziqrupisə öz növbəsində sosial qrupa çevrilə bilər.

**Sosial təşkilatlar** məqsədyönlü sosial sistemlərdir. "Təşkilat" termini mənşəcə "orqanizasion" sözündən olub, qaydaya salmaq mənasını ifadə edir. I təşkilat dedikdə müəyyən insanlar qrupunun yeni normalar və qaydalar işləyib hazırlamağa, dayanıqlı əlaqələr yaratmağa yönəlmiş, qarşılıqlı əlaqələrini ifadə edən fəaliyyət forması başa düşülür. II təşkilat hər hansı bir obyektin atributu kimi, onun nizamlanma strukturuna malik olmaq cəhdi kimi başa düşülür. III sözügedən anlayış bəzən müəyyən ictimai funksiyanı yerinə yetirən institut xarakterli sosial qrupu ifadə edir. Sosial təşkilatların tədqiqatçılarıdan olan S.Sfrolov onları məqsədlərin əldə edilmsinə yönələn rasional sistem kimi xarakteri edir. Onun fikrincə təşkilatların müəyyənləşdirilməsində aşağıdakı istiqamətlər mövcuddur: 1) istiqamət K.Beənardın nəzəriyyəsi ilə bağlıdır. Həmin nəzəriyyəyə görə, təşkilat insanların kooperasiyasının elə növüdür ki, o, digər sosial qruplardan şüurluluğu və məqsədyönlü olması baxımından fərqlənir. 2 istiqaməti D.Març və Q.Saymonun nəzər-nöqtələri daha yaxşı səciyyələndirir. Onların fikrincə, təşkilat qarşılıqlı fəaliyyətdə olan insanların birliyidir. Elə birlik ki, o, cəmiyyətdə daha geniş yayılmışdır və mərkəzləşdirilmiş koordinasiya sisteminə malikdir. P.Blan və Y.Skott təşkilatların müəyyənləşdirilməsinin III istiqamətini təqdim edirlər. Onların fikrincə, təşkilatlar əsas məqsədlərin əldə olunması naminə formalaşdırılır. A.Etsioninin mövqeyi IV istiqaməti ifadə edir. O göstərir ki, təşkilat spesifik məqsədləri həyata keçirmək naminə təşkil olunan sosial birliklərdir. Burada başlıca diqqət təşkilatın, onun üzvlərinin şüurlu fəaliyyətinə yönəldilir.

## NİGAH VƏ AİLƏNİN SOSİALOGİYASI.

Cəmiyyətin mühüm institutlarından biri də fəaliyyəti hüquq və əxlaqi normalarla tənzim edilən ailədir. Say, həcm, tərkib və ailə üzvlərinin qarşılıqlı əlaqəsi kimi səciyyələnən ailə məfhumu sosioloqlar tərəfindən cəmiyyətin sosial milli etnik məqrasiya, əhalinin həyat tərzi və həyat səviyyəsi təkrar istehsal əmək ehtiyatları və s. təhlilində geniş istifadə olunur. Ailəni sosialogiya elmi ilə hüquq, etnoqrafiya, psixologiya, pedaqogika və s. elmlər də öyrənir. Məsələn: etnoqrafiya elmi ailəni ailə - nigah münasibətində xalqların ailə daxili sferasını öyrənir. Bunadan fərqli olaraq psixologiya ailə üzvlərinin hisslərini, xasiyyətini və davranışını, o cümlədən, ailədə bu xüsusiyyətlərin meydana çıxmasını, sosial və təbii mənbələrini, hüquqşünaslıq elmi ailənin və nigahın qanunauyğunluqlarını və onun sosial həyata münasibətini tənzimləyən ictimai hüquqi normalarla uyğunluğunu öyrənir.

Pedaqogika elmi isə ailənin uşaqlara təsirini, ailənin tərbiyə vəsaitini və qanunauyğunluğunu, valideyinlərin hər birinin uşaqlara təsirini, yanaşma münasibətini, ailə qarasındakı münasibətləri öyrənir. Digər elmlərdən fərqli olaraq sosialogiya ailəni nigaha əsaslanan müəyyən sosial funksiyaları yerinə yetirən sosial institut kimi təhlil edir. Ailə ictimai zəruri hadisə olub, spesifik inkişaf qanunauyğunluqlarına malikdir. Müxtəlif ədəbiyyatlarda ailəyə müxtəlif cür tərif verilmişdir.

**Ailə** nikah və qan qohumluğuna əsaslanan, birgə yaşayış və qarşılıqlı məsuliyyətlə bir-birinə bağlı olan insanların birliyidir. Ailə münasibətlərinin ilkin əsasını nikah təşkil edir. **Nikah** qadınla kimi arasında rəsmi qaydada təsbit olunan müqavilədir. O, tarixən dəyişkən xarakter daşıyır. Nikah vasitəsilə cəmiyyət qadınla kişinin cinsi həyatını tənzimləyir., onların ər-arvad kimi hüquq və vəzifələrini qanunla müəyyən edir. Buna görə də nikah ailənin hüquqi əsası hesab

edilir. Lakin qeyd olunmalıdır ki, ailə nikaha nisbətən daha mürəkkəb münasibətlər sistemidir. Çünki o, yalnız ər-arvadı yox, həm də onların uşaqlarını, eləcə də digər qohumlarını birləşdirir.

Ailənin formalaşması bir sıra mərhələlərdən keçir. Onların içərisində ən mühümləri aşağıdakılardır: **1)** nikahın bağlanması – ailənin yaranması **2)** uşaq doğumunun başlanması – ilk uşağın doğulması **3)** uşaq doğumunun sona çatması – sonuncu uşağın doğulması 4) "boş yuva" – sonuncu uşağın ailəni tərk etməsi **5)** ailənin mövcudluğunun sona çatması - ərin və ya arvadın vəfat etməsi. Hər bir mərhələdə ailə ancaq özünə xas olan sosial və iqtisadi xüsusiyyətlərə malik olur. Ailənin mahiyyəti aşağıdakı məzmunlarda ifadə olunur: ailənin funksiyaları, onun quruluşu, hər bir ailə üzvünün ailədə rolu. Müasir ailənin yerinə yetirdiyi funksiyalar aşağıdakılardır:



**1)** nəsil artırma **2)** tərbiyə etmə **3)** təsərrüfat-iqtisadi **4)** kommunikativ və **5)** tənzimləyici (ailədə ilkin sosial nəzarət) **6)** reaktiv (qarş, kömək, sağılamlığın qorunması). Ailənin funksiyaları onun strukturu ilə bağlıdır.

Ailənin strukturu dedikdə onun üzvləri aralarında münasibətlərin əxlaqi, mənəvi, nüfuz və s. nəzərdə tutulur.




Ailənin strukturunu öyrənərkən sadə (nukliar) və mürəkkəb ailə terminlərinə rast gəlirik. **Mürəkkəb ailə** 3 və daha çox nəsildən baba, nənə, ata, ana və uşaqlardan ibarətdir. **Nukliar ailədə ( sadə)** isə 2 nəsil ata, ana və uşaqlar yaşayır. Ailənin strukturundan danışarkən tam və natamam ailə terminlərindən də istifadə olunur. Əgər ailədə ər-arvad bir yerdə yaşayırsa, belə ailə **tam ailə** hesab olunur. Əgər ər-arvad yaxud arvad vəfat edirsə, bu zaman ailə **natamam ailəyə** çevrilir.

Sosioloqlar ailə üzvləri arasındakı münasibətləri tədqiq edərkən uğurlu və uğursuz ailə terminlərindən də istifadə edirlər. **Uğurlu** ailədən fərqli olaraq **uğursuz ailələrdə** ər və arvad ailə həyatında meydana çıxan problemlərə eyni

baxımdan yanaşmırlar. Bir-birinə etibar etmirlər. Həkimlər və psixoloqların fikrincə, ailə xoşbəxtliyinin ən azı 5 şərti var:

**1.** Bir-biri üçün yaşamaq (bir-birinə diqqət və qayğı ilə yanaşmaq) **2**. Etibar və canıyanalıq **3.** Bir-birini başa düşmək **4.** Normal intim həyat **5.** Öz evlərinin olması. Ailənin idarə olunmasına görə avtoritar demokratik və liberal quruluşa bölünür.




**Avtoritar ailədə** uşaqlar valideynlərinsözlərinə baxırlar. **Demokratik ailələrdə** ata və ana uşaqların dedikləri ilə hesablaşır. **Liberal ailələrdə** isə uşaqlar başdı-başına buraxılır, valideynlər onların tərbiyəsi ilə məşğul olmur.

Nigahın aşağıdakı formaları məlumdur. **1)** Monoqan – təknigahlılıq. **2)** Poliqan – çox arvadlılıq. **3)** Poleandra – çox ərlilik. Hazırda ölkələrin əksəriyyətində monoqan ailə tanınır. Poliqan nigah Afrika və Asiyanın bir sıra ölkələrində, o cümlədən Vyetnam, İran və s. ölkələrdə yayılıb. Onun başlıca səbəbi cinslərin tənasübündə olan fərli hallar, əsas etibarilə, müharibələr nəticəsində qadınların sayının kişilərin sayını ötüb keçməsidir. Poliandra isə qadınların az olduğu qəbilə və ölkələrdə rast gəlinir.

## DİNİN SOSİOLOGİYASI.

**Dinin sosiologiyası**. Sosial institent olan dini, onun genezisini, cəmiyyətdə yerini və rolunu öyrənir, onun meydana gəlməsinin, fəaliyyətinin tarixi təkamülünün sosial qanunauyğunluqlarını, digər sosial institentlarla qarşılıqlı əlaqə və təsirini üzə çıxarır. Din xüsusi təsəvvürlərin, etiqadların sistemidir. Bu təsəvvürlər, etiqadlar həmişə emosional yaşantılarla, hisslərlə və xüsusi dini – kult fəaliyyəti ilə, dini təşkilatla müşaiyyət olunur.

**Din,** dini ideyaları, təsisatları, təşkilatları, insanların dini fəaliyyətində meydana gələn münasibətləri əhatə edir. Ona görə də dinin strukturunu 3 başlıca komponentdən ibarət olan sistem kimi təsəvvür etmək olar:




**1)** dini şüur **2)** Dini fəaliyyət **3)** dini təşkilatlar. **Dini şüur** ictimai şüurun spesifik forması olub dini ideologiya və psixologiyanı özündə birləşdirir. Dini şüurun yaranması insan psixikası ilə bağlıdır. Həmçinin qeyd etməliyik ki, dini şüur kifayət qədər müstəqilliyi fərqlənir. **Dini fəaliyyət** kultda və digər formalarda özünü göstərir. Kult – fövqəltəbii varlıqlara təsir etmək üçün edilən xüsusi

hərəkətlər sistemidir. **Dini təşkilatlara** gəldikdə isə görürük ki, dövrlərə uyğun onlarda dəyişikliklər baş vermiş, dinin ictimailəşməsi prosesi getmişdir.

Dinin sosial mahiyyətinə gəldikdə isə deməliyik ki, o mütərəqqi dinlər, xüsusən islam bəşəri dəyərlərin qorunub saxlanmasında, insanların mənəvi cəhətdən təmizlənməsində, qarşılıqlı kömək və əmin-amanlığın yaranmasında mühüm rol oynamış, oynayır və oynayacaqdır.

Dinin sosiologiyasında qarşıda duran vəzifələrdən biri q/ənənəvi dinlərin, mistik təlimlərin yayılması miqyaslarını, habelə inkişafı imkanlarını öyrənməkdən ibarətdir.

Müstəqil inkişaf şəraitində respublikamızda dövlətlə dinin qarşılıqlı münasibətləri demokratik əsadlarda qurulmuşdur. Mövcud qanunvericilik aktları zəmnininde dinlərin fəaliyyəti təmin edilmişdir.

Qərbdə dinin sosialogiyasının baniləri. E. Dürkheym və M. Viber hesab olunur. Dürkheymə görə din, cəmiyyətin sıx birləşməsinin, fərdlə sosial bütöv arasında əlaqələrin qərarlaşmasının əsas vasitədir. M. Viberlə bağlı olan ənənə isə dini hər şeydən əvvəl sosial fəaliyyətin motivi kimi şərh edir, bu və ya digər ictimai dəyişiklik prosesində onun rolunu aşkara çıxarır.

Aparılmış sosialoji tədqiqatçıların nəticələrinə əsasən qeyd etmək olar ki, dinin xalqın mədəniyyətinə, adət və ənənələrinə nüfuzlu insanların daha geniş dairəsinin dini fəaliyyətdə iştirakına səbəb olur. Onlar bu fəaliyyəti öz milli mədəniyyətinin, adət və ənənələrinin müəyyən hissəsi kimi qiymətləndirirlər.

Dərin tarixi kökləri olan din insanların həyat tərzinə nüfuz edərək, onların milli xüsusiyyətlərinin formalaşmasında böyük rol oynamış, digər sosial institutlara fəal təsir göstərmişdir. Din, müxtəlif funksiyalar yerinə yetirir.

**1) Dünyagörüşü funksiyası**. Din gerçəkliyi spesifik şəkildə əks etdirir, fövqəltəbii qüvvələrin və varlıqların real surətdə mövcudluğunu etiraz edir**. 2) Tənzimedici funksiya. 3) Kommunikativ funksiya. 4) İnteqrasiyaedici mühafizəedici funksiya. 5) Kompensasiyaedici funksiya.**

**MÜASİR DÖVRÜN QLOBAL PROBLEMLƏRİ VƏ SOSİAL PROQNOZLAŞDIRMA.**

Müasir dövrdə bəşəriyyətin mövcudluğu üçün mühüm həyati əhəmiyyət kəsb edən və ictimai tərəqqinin ondan asılı olduğu problemlərin məcmusu qlobal problemlər adlanır.

"Qlobal problemlər" müəyyənləşdirilərkən aşağıdakı 4 cəhət əsas tutulmalıdır.

a) o hadisələr "qlobal" xarakter daşıyır ki, onlar çox aktual ziddiyyətlərdir, ictimai tərəqqiyə mane olur və sivilizasiyanı məhv etmək təhlükəsi yaradılır.

b) Onlar bütün xalqların və dövlətlərin, bütün bəşəriyyətin mənafeyinə toxunurlar;

c) Onlar özlərində ictimai və təbii, biososial mahiyyət daşıyırlar.

d) Onların həll edilməsi kollektiv nəzarət, beynəlxalq əməkdaşlıq edir.

Müasir sosial qlobal problemlərin müəyyən qismi təbiət – cəmiyyət, təbiət – insan qarşılıqlı münasibətlərindəki tarazlıq qanunauyğunluqların pozulması nəticəsində baş vermişdir. Bunları müasir sosial və elmi –texniki tərəqqi şəraitdə meydana çıxmış, "ekoloji böhran" adlandırmaq olar: təbiət, su, torpaq getdikcə daha böyük sürətlə çirklənir, insan öz mövcudluğunu təhlükə altına alır.

F. Engels "Təbiətin dialektikası" əsərində dəfələrlə qeyd edirdi ki, insanın böyüklüyü ondadır ki, o təbiət qanunauyğunluqları öyrənir, təbiəti öz məqsədlərinə tabe olmağa məcbur edir.




Elmi qabaqgörənlik və sosial proqnozlaşdırmanı məzmun və məqəsdinə görə 4 əsas növə bölmək olar: **1)** axtarıcı. **2)** normativləşdirici. **3)** analitik. **4)** xəbərdaredici proqnozlar.

## İMTAHAN BİLETLƏRİNİN SUALLARI

1.Fəlsəfə və dünyagörüşü

2.Yeni dövr fəlsəfəsi

3.Politologiya nəyi öyrənir

4.Hüquqi dövlət

5.Sosial struktur

6.Orta əsr Qərbi Avropa fəlsəfəsi

7.Siyasi sistem anlayışı

8.Partiya sistemləri

9.Sosiologiya cəmiyyət haqqında elmdir

10.Fəlsəfi biliyin qaynaqları

11.XVII əsr ingilis fəlsəfəsi

12.Siyasi hakimiyyətin anlayışı

13.Totalitar rejimlər

14.İctimai şüurun strukturu

15.Dialektika inkişaf haqqında elmdir.

16.Seçki sistemi.

17.Siyasi ideologiya

18.Sosial statuslar

19.Qədim Şərq fəlsəfəsi

20.Siyasətin subyektləri

21.Vətəndaş cəmiyyəti

22.Sosial strukturun elementləri

23Fəlsəfədə insan problemi

24..Parlament, onun formaları,strukturu ,

və funksiyaları

25..Beynəlxalq münasibətlər sistemi

26..Əməyin sosiologiyası

27..Orta əsr Şərq fəlsəfəsi

28.Klassik Alman fəlsəfəsi

29.XIX-XX əsrin siyasi ideologiyası

30.Dövlətin meydana gəlməsi

31.Qruplar və təşkilatlar

32.Sokrataqədərki fəlsəfə

33.Azərbaycada maarifçilik fəlsəfəsi

34.Politologiyanın kateqoriyaları,metodikası funksiyası

35.Avtoritar rejim

36.Sosial mobillik

37.Fəlsəfədə varlıq və materiya problemi.

38.Dövlətin xarici siyasət fəaliyyəti.

39.Mojoritar və proporsional seçki sistemi

40.Qədim Babilistan fəlsəfəsi

41.Mədəniyyət anlayışı

42.Siyasi liderlik

43.Partiyaların təsnifatı

44.Şəxsiyyətin sosiallaşması

45.Qədim Hindistan fəlsəfəsi

46.Fəlsəfədə zaman, məkan anlayışı

47.Totalitar rejim

48.Nəzəri və tətbiqi sosiologiya

50.Demokratiyanın formaları

51Demokratiyanın müasir prinsipi

52.Antik fəlsəfə

53.Siyasi elita

54.Ailə

55.Orta əsr Azərbaycan fəlsəfəsi.

56.Təhsilin sosiologiyası.

57.Dinin sosiologiyası

58.İntibah dövr fəlsəfəsi

59.Fəlsəfədə materiya anlayışı

60.Siyasi ideologiya

61.Azərbaycanın siyasi sistemi

62.Fəlsəfədə hərəkət,zaman,və məkan anlayışı.

63.Fəlsəfədə şüur problemi

64.Demokratiyanın tarixi inkişaf formaları

65.İrqlər və etnik münasibət.

66.Dövlət və cəmiyyət

67. Qədim Azərbaycan fəlsəfəsi.

68.Siyasi şüur

69.Dinə sosioloji yanaşma

70.Siyasi hakimiyyət anlayışı

71.Şəxsiyyətin sosiallaşması

72. Əzəli və qazanılmış statuslar

73. Sosiologiyanın predmeti

74. Həyatın mənası: ölüm və ölməzlik

75. Az.Respublikasında partiyaların yaranmasının xarakterik xüsusiyyətləri.

ƏDƏBİYYAT:

1. Həmid İmanov "Fəlsəfə" Bakı 2005
2. Fərrux Ramazanov "Fəlsəfə" Bakı 2005
3. M.Ə. Teymurlu "Politologiya" Bakı 2008
4. Fazil Vahidov,Tahir Agayev"Sosiologiya" Bakı 2009
5. Piriyev A.M.,Əfəndiyeva X.B."Sosiologiya və politologiya"Bakı2009